# *Quran və rəvayətlər baxımından*

# İNSANIN YAXŞI ƏMƏLLƏRINI MƏHV EDƏN BÖYÜK GÜNAHLAR

Ölümdən sonrakı əbədi həyatda, cəhənnəm əzabından uzaq olub, cənnətə daxil olmaq üçün bacardığımız qədər yaxşı işlər və saleh əməllər yerinə yetirməliyik. Amma yaddan çıxartmamalıyıq ki, yaxşı əməlləri qorumalı, özümüzlə birlikdə əbədi həyata aparmağı da bacarmalıyıq. Ola bilsin ki, bəziləri bunu dərk etməkdə çətinliklə üzləşsin və aydınlaşdıra bilməsin ki, necə ola bilər ki, insan öləndən sonra əməllərini özü ilə birgə əbədi həyata aparır. Əgər Qurani-kərim və eləcə də bir çox məsumlardan (ə) nəql olunmuş rəvayətlərə nəzər salsaq görərik ki, bu bir həqiqətdir. Bəli, insan yaşadığı fani dünya ilə vidalaşdıqdan sonra, axirət aləminə bir çox pis və yaxşı əməlləri də özü ilə aparır. Necə ki, Allah-taala buyurur: Hər kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onu (onun xeyrini) görəcəkdir (mükafatını alacaqdır). Kim də zərrə qədər pis iş görmüşdürsə, onu (onun zərərini) görəcəkdir (cəzasını çəkəcəkdir). (Zəlzələ, 7-8). Qeyd olunan ayələr qiyamət gününə aiddir və ayələrdən məlum olur ki, insan öləndən sonra həm yaxşı və həm də pis əməlləri, onunla birgə əbədi həyata ötürüləcək. Günahların bağışlanması və əbədi həyata ötürülməməsi üçün bir çox yollar var və onlardan biri və ən əsası, tövbə etməkdir. Mən bu mövzuya toxunmaq istəmirəm. yazıdan əsl məqsədim budur ki, nə etməliyik ki, bir çox zəhmətlər ilə əldə etdiyimiz yaxşı işləri özümüzlə əbədi həyata apara bilək.

Bu mövzuya, həm Qurani-kərim ayələrində və həmdə Məsumların (ə) rəvayətlərində işarə olunub. Aşağıda yaxşı əməllərin hansı günahlar vasitəsi ilə məhv olmasına işarə edirik.

***Quran ayələri baxımından yaxşı əməlləri məhv edən böyük günahlar***



### 1- Allaha şərik qoşmaq

Quranın baxışında ən çirkin və xoşagəlməz əməl tək olan və qüdrətli Tanrıya şərik qoşmaqdır. Allaha şərik qoşan şəxsin bütün yaxşı əməlləri puç olar. Allah-taala buyurur: (Ya Rəsulum!) Sənə və səndən əvvəlkilərə (keçmiş peyğəmbərlərə) belə vəhy olunmuşdur: "Əgər (Allaha) şərik qoşsan, bütün əməlin puça çıxacaq və mütləq ziyan çəkənlərdən olacaqsan"! ( Zumər,65).

### 2- İman gətirdikdən sonra küfrə qayıtmaq

Bir çox peyğəmbərlərin (ə) tarixini mütaliə etdikdə görürük ki, Allah-taala peyğəmbəri inkar edənləri məhv edib. Buna Nuh, Lut, Musa (ə) və bir çox peyğəmbərlərin əhvalatını misal gətirmək olar. Amma bəzən Allah peyğəmbərin davamçı və ümməti hesab olanları cəzalandırır. Hər kim doğru yola hidayət olub, düz yolu dərk etdikdən sonra bildikləri və inandıqlarının əksinə əməl etsə, bütün yaxşı əməlləri heçə sayılar. Ali-İmram surəsinin 77-ci ayəsində oxuyuruq: "Allah ilə olan əhdlərini və andlarını ucuz bir qiymətə satan şəxslərə axirət nemətlərindən heç bir pay yoxdur. Allah qiyamət günündə onları dindirməz, onlara nəzər salmaz və onları (günahlarından) pak etməz (təmizə çıxarmaz). Onları şiddətli bir əzab gözləyir"!

Bu ayə bəzi yəhudi din alimlərinin tövratı öz istək və çıxarlarına uyğun olaraq açıqladıqları barədə nazil olub.

Allah-taala digər bir ayədə isə belə buyurur: "İmanı dananın bütün işləri boşa çıxar və o, axirətdə zərər çəkənlərdən olar"! ( Maidə,5).

### 3- Dindən çıxmaq

Saleh əməllərin məhv olmasına səbəb olan digər bir amil isə dindən çıxmaqdır. Dindən çıxmaq dedikdə məqsəd budur ki, müsəlman olan bir şəxs özünə başqa bir din seçə və İslamın həqq olduğunu inkar edə. Dini termində belə bir şəxsə "Mürtədd" deyilir. Mürtəd hər nə qədər də yaxşı işlər etsə, Allah dərgahında qəbul olunmayacaq. Həzrət Musanın (ə) davamçıları hesab olan Bəni-İsrailin əhvalatını buna misal gətirmək olar. Belə ki, Musa (ə) Bəni-İsrail tayfasını Fironun əsirliyindən xilas etdikdən sonra, Bəni-İsrail Musaya iman gətirir. Amma qısa bir müddətdən sonra onlar bütpərəstliyə meyl göstərir və Allah onları cəzalandırır. Bu onun göstəricisidir ki, həqiqəti dərk edib hidayətə qovuşduqdan sonra küfrə qayıtmaq bağışlanmaz bir səhv və bütün yaxşı əməlləri məhv edən bir amildir. Allah-taala buyurur: "Sizdən hər kəs öz dinindən dönüb kafir olaraq ölərsə, belə kimsələrin bütün əməlləri (vaxtilə gördüyü yaxşı işləri) dünya və axirətdə heçə gedər. Onlar cəhənnəmlikdirlər və orada əbədi qalacaqlar"! ( Bəqərə,217).

### 4- Nifaq

Allahın bəyənmədiyi bir çox əməllər var. O əməllərdən biri də ikiüzlülükdür.

Özünü mömin hesab edən ikiüzlü insanlar əslində mömin deyil və onlar sadəcə İslam adı altında gizlənmiş imansızlardır. Qurani-kərimə görə bu xislətə malik olanların hər növ yaxşı əməlləri puç olub, Allah dərgahında qəbul olunmayacaq. Allah-taala buyurur: "İman gətirənlər isə deyəcəklər: "Sizinlə birlikdə olacaqları barədə Allaha möhkəm andlar içən kəslər bunlarmıdır?" Onların (bütün) əməlləri puça çıxdı və (axirətdə) zərərçəkənlərdən oldular." (Maidə, 53).

"Sən onların bağışlanmasını diləsən də, diləməsən də, fərqi yoxdur. Onsuz da Allah onları bağışlamayacaqdır. Şübhəsiz ki, Allah fasiq qövmü doğru yola yönəltməz"! (Munafiqun, 6).

**5- Allahın ayələri və qiyamət gününü inkar etmək**

Yaxşı əməllərin məhv olmasına səbəb olan digər bir günah isə Haqq-hesab günü və eləcədə Allahın vədələrini inkar etməkdir. Allah-taala əməlləri puç olanlar barədə buyurur: "Onlar o kəslərdir ki, Rəbbinin ayələrini və Onunla qarşılaşacaqlarını (qiyamət gününü) inkar etdilər, bununla da onların bütün əməlləri puça çıxdı. Buna görə də Biz (qiyamət günü) onlar üçün bir daş-tərəzi qurmayacağıq"! (Kəhf,105).

Rəvayətlər baxımından, saleh əməllərin məhv olmasına səbəb olan amillər

**1- Riyakarlıq**

Bəyənilməyən və böyük günahlardan hesab olan əməllərdən biri də riyakarlıqdır. Riyakar o şəxsə deyilir ki, başqalarının gözündə böyümək və məhz onların razılığını əldə etmək üçün hər hansı bir iş və ya ibadəti yerinə yetirsin.

Peyğəmbər (s) buyurur: "Qiyamət günü riyakara xitab olunub deyiləcək: Ey günahkar, ey tülkü xislətli, ey riyakar, sənin əməllərin itib və qazancın məhv olun. Ona görə də müzdünü, kimə görə iş görürdünsə, ondan da istə". (Bihar,c.72.302).

**2- Təkəbbür**

Allah dərgahında özündən razı və təkəbbürlü insanın heç bir dəyəri yoxdur. Hamımız bilirik ki, ilk təkəbbür edən İblis olub. İblis Allaha altı min il ibadət etdi. Amma Allah qarşısında təkəbbür etdiyinə görə onun altı min illik ibadəti puç oldu.

İmam Əli (ə) buyurur: "Allah şeytana etdiyindən ibrət götürün ki, onun uzun müddətli çalışmağı və ibadəti məhv oldu. Şeytan Allaha altı min il ibadət etdi, amma yalnız bir dəfə təkəbbürlük etdiyinə görə bütün əməlləri puç oldu". (Bihar,c.63.214).

**3- Qısqanclıq**

Həqiqi mömin heç vaxt başqasının maddi və mənəvi üstünlüyünə qısqanmaz. Qısqanclıq elə bir xəstəlikdir ki, insanda tədricən müxtəlif mənəvi xəstəliklər yaradır. Həmçinin bu əməl insanın yaxşı işlərini məhv edir.

Peyğəmbər (s) buyurur: "Bir-birinizə qısqanclıq etməyin ki, əməlləriniz məhv olar". (Bihar,c.37.210).

**4- Fəhlə və işçilərə zülm etmək**

"Başqasının həqqini ödəməmək böyük günahlardan biridir. Peyğəmbər (s) buyurur: Hər kim öz işçisinə zülm etsə, Allah onun əməllərini məhv edər". (Bihar,c.76.332).

**5- Yaxşılıq etdiyimiz şəxsə minnət qoymaq**

Peyğəmbər (s) buyurur: "Doğurdan da yaxşılıq edərkən minnət qoyan şəxsin əcrini Allah məhv edər". ( Bihar,c.77.145).

**6- Haqqı bilən halda inadkarlıqla mübahisə etmək**

İmam Sadiq (ə) buyurur: "İnadkarlıqdan çəkin ki, əməllərinin məhv olmasına səbəb olar."

(Bihar,c.78.288).

**7- Ücb və özünü bəyənmə**

Peyğəmbər (s) buyurur: "İnsanın özünü bəyənməsi, əməllərinin məhv olmasına səbəb olar".

( Bihar,c.72.321).

**8- Namazı tərk etmək**

Peyğəmbər (s) buyurur: "Hər kim səbəbsiz yerə namazı tərk etsə, əməlləri puç olar".

(Bihar,c.82.202).

**9- İmamın (ə) vilayətini qəbul etməmək**

Allah rəsulu (s) Əliyə (ə) üz tutaraq buyurdu: "Hər kim səni sevmədən və imamlığını qəbul etmədən dünyadan köçsə, əməlləri məhv olar". (Bihar,c. 24.65).

**Kərbəlayi Elçin Əliyev**



# MÜBARƏK RAMAZAN AYI ƏXLAQ AYIDIR

Ramazan ayının adlarından biri "Şəhrut təhur"dur. Yəni paklıq ayı. Təhur o şeylərə deyilir ki, həm özü pakdır (təmizdir), həm də başqalarını paklayandır (təmizləyəndir).

Bir nəfər İmam Zeynül-abidindən (ə) soruşdu:

-Ya İmam, Allah-taalanın minlərlə adının içində ən gözəli hansıdır?

İmam Zeynül-abidin (ə) buyurdu:

-Ya Əthərət tahirin, yəni "ey pakların ən Pakı."

Bir dəfə mübarək Ramazan ayının astanasında Həzrət Muhəmməd (s) məscidə gəldi. Moizə etmək üçün minbərə çıxmamışdan əvvəl 3 dəfə buyurdu:

- "Subhanəllah, ey camaat bilirsinizmi nəylə qarşılaşırsınız?!"

Bir nəfər ayağa qalxaraq dedi: "Ey Allahın Peyğəmbəri, vəhy gəlib?"

Başqa birisi dedi: "Düşmən hücuma keçmək istəyir? Nə üçün 3 dəfə o cümləni dediniz?"

Həzrət Muhəmməd (s) buyurdu: "Xeyr, nə vəhy gəlib, nə də düşmən hücum edib, əksinə, mübarək Ramazan ayı gəlir. Bu ayda bütün qiblə əhli, yəni bütün müsəlmanlar bağışlana bilər". Məsciddəkilərdən biri dedi: "Elə şey olar?! Bir ayın içində hamının günahları necə bağışlana bilər?"

Peyğəmbər (s) buyurdu: "Bunu qəbul etmək sənə belə çətin gəldimi?" Sonra Peyğəmbər (s) minbərə çıxdı, 3 dəfə ucadan "Amin" dedi.

Camaat soruşdu: "Ey Allahın Peyğəmbəri, nə üçün 3 dəfə amin dediniz?"

Peyğəmbər (s) buyurdu:

"İndi Həzrət Cəbrail mənə xəbər verdi ki, " Ya Muhəmməd! Bu mübarək ayda üç dəstə adamdan başqa, hamı bağışlana bilər. Bağışlanması mümkün olmayanlar 1- Valideyninə ağ olanlar, 2- Sənə qəsdən salavat göndərməyənlər, 3- Bu ayı vecinə almayanlar, bu aydan bəhrələnmək istəməyənlərdirlər."




Bəli, bu mübarək ayı daha yaxşı tanımalıyıq. Bu aydan ən yüksək səviyyədə istifadə etməliyik. Elə etməyək ki, mübarək Ramazan ayının necə qurtarmasından xəbərimiz olmaya. Təsəvvür edin ki, içi boş olan bir butulkanı ağzını bağlayaraq dənizə atsaq, həmin butulka dənizdə 1 ay qaldıqdan sonra onu sudan çıxartsaq, görəcəyik ki, onun içinə 1 damcı su belə, dolmayıb. Onun içinə, hətta bir damcı suyun dolmaması dənizin problemi deyil, həmin butulkanın problemidir.

Mərhum Şeyx Tusi gözəl bir hadisə nəql etmişdir. Həzrət Muhəmməd (s) buyurur: "Mən meraca gedəndə bir növ qəsrlər (saraylar) gördüm, çox gözəl idilər. Mən gördüm ki, bu qəsrin içərisindən çöl görsənir, amma çöldən qəsrin içərisi görsənmir. Cəbraildən soruşdum ki, bu qəsrlər kimlərindir? Cəbrail dedi: Bu qəsrlər o adamlarındır ki, onların həyatda bu 4 xüsusiyyəti olsun.

**1- Danışıqları və sözləri pak olan.**

Deməli, insanın sözləri pak və təmiz olmalıdır. Qeybət etməməli, söyüş söyməməli, ədəbsiz sözlər işlətməməli, yalan danışmamalı. Bir hədisdə oxuyuruq: "Nə qədər oruc tutanlar var ki, Ramazan ayından onlara qalan yalnız aclıq və susuzluq olur". Allah-taaladan istəyək ki, bizim zəhmətimizi hədərə getməyə qoymasın.

Sevimli Peyğəmbərimizdən rəvayət edilən hədislərin birində Həzrət Muhəmməd (s) buyurur: "Əgər orucluqda bir kimsə sizi söyərsə, siz başınızı aşağı salaraq desəniz: "Çıx get, mən orucam, ona görə də Allaha xatir sənə heç nə deməyəcəyəm" və danışmasanız, Allah buyurar: "Bu insan Mənə görə söyüş və nalayiq hərəkətləri tərk etdiyi üçün Mən də cəhənnəmi ondan uzaqlaşdırıram, onu cənnət əhlindən qərar verirəm. Bu vaxt Əmirəl-möminin Əli (ə) buyurdu: "Ey Allahın Peyğəmbəri, sözlərimizin pak olması üçün nə edək, hansı zikrləri deyək? Həzrət Muhəmməd (s) buyurdu: "Bu zikri çox deyin

سبحان الله والحمد لله ولا اله الا الله والله اكبر

Subhanəllahi, vəlhəmdu lillahi, və la ilahə illəllahu, vallahu əkbər"

**2- Oruc tutmaqda davam edən.**

Oruclarını davam etdirirlər, yəni nə qədər ki, sağdırlar və oruc tutmağa qüdrətləri var, həm vacibi Ramazan ayının orucunu hər il tuturlar, həm də bacardıqları qədər müstəhəb oruclar tuturlar.

**3- Yemək yedizdirən.**

Yemək yedizdirən cümləsi çox geniş mənadadır. Hər bir insanın ruhiyyəsində başqalarını yedizdirmək həvəsi və istəyi olmalıdır. Həmin məclisdə Əmirəl-möminin Əli (ə)

soruşdu: "Ey Allahın Peyğəmbəri, "yemək yedizdirən" kimlərdir? Həzrət Muhəmməd (s) buyurdu: "İnsan öz ailəsinə yalnız halal ruzi yedizdirsin."

Bəli, çalışaq ki, iftarımızın yeməkləri halal olsun. Hara gəldi yemək yeməyə getməyək.

**4- Gecələr camaat yatan vaxt yuxudan durub ibadət edən.**

İmam Rza (ə) buyurur: "Ramazan ayı rəhmət ayıdır, bağışlanma ayıdır. Əgər sən bu ayda bağışlana bilməsən, daha hansı ayda bağışlanacaqsan?!"

Belə fürsət həmişə bizə nəsib olmur. Allah-taala hamımızı bu ayda bağışlanmış insanlardan qərar versin.

**Rza Əzizoğlu**

*İlahiyyat elmləri üzrə araşdırmaçı, (islamaz.com)*

# BİR NİHİLİST DÜŞÜNCƏYƏ CAVAB

Bəzən acı olsa da, toplum içərisində nihilist düşüncələrin izlərinə rastlamaq olur. Onlardan birini burada təhlil etmək istərdim. Gəlin, görək nə deyirlər, iddiaları nə qədər möhkəmdir. Bu düşüncənin daşıyıcıları deyirlər ki, insanlar – istər dindar olsun, istərsə də qeyri-dindar-qorxaq olduqları üçün inanclarına (məsələn, dini inanclar və s.) şübhə edə, şəkk edə bilmirlər. Əgər onlar inanclarına bir müddət şübhə etməyə başlasalar, bu durum onlarda adiləşsə, görəcəklər ki, qorxulu bir şey yoxdur və inanmamağa başlayacaqlar.



Sizcə, bu düşüncə nə qədər əsaslı bir düşüncədir? Belə bir fikiri müdafiə etmək nə qədər məntiqli nəzərə çarpır? Məncə, belə bir nihilist düşüncə ilə heç bir zaman barışmaq mümkün deyil. Aşağıda bəzi mülahizələrimi qeyd edirəm:

1. Şübhə etmək üçün dəlil, əsas olmalıdır. Durduq yerdə, heç bir dəlil olmadan, şübhə etmək məntiqli iş deyil. Bəli, dəlilin, əsasın, sübutun varsa, buyur, şübhə et və dəlillər axtarışına çıx və sonucda, bir qənaətə gəl: ya müsbət, ya da mənfi. Əsas olan odur ki, şübhə edə bilmək üçün dəlilin, sübutun olmalıdır. Əks təqdirdə, gördüyün iş məntiqsiz, ağılsızdır. Ağıllı adam belə bir iş tutmaz.

2. Bir şeyin haqq, doğru, gerçək, həqiqət olması sübutla isbatlanıbsa, daha ona şübhə, şəkk etmək olmaz. İsbatlamaq o deməkdir ki, ona şübhə etmək olmaz, o deməkdir ki, mən artıq ona şübhə etmirəm. İndi, durub, şübhə etsəm, deməli, aydın olur ki, isbatlamamışam. Əgər isbatlamışamsa, deməli, şübhəm də yoxdur. Məsələn, mənin üçün 2+2=4 dürsə, onda necə ona şübhə edə bilərəm və özümü inandıra bilərəm ki, cavab "4" deyil, "5"dir?! Mən filan kəsin atam olduğunu bilə-bilə, necə onun atam olmadığına şübhə edə bilərəm?! Hər hansı bir şeyin doğru olduğunu mən isbatlamışamsa, deməli, mənim ona şübhəm də yoxdur. Odur ki, bir şeyi isbatlamaqla ona şübhə etmək bir araya sığa bilməz. Kimsə bu kimi durumlarda şübhə etsə, məlum olur ki, normal adam deyil.

3. Tutaq ki, mən heç bir dəlil, sübut olmadan özümü məcbur edib, inandırdım ki, şübhə etməliyəm- filan məsələ yalnışdır və s. Sonucda, məndə belə bir psixoloji durum yaranmağa başladı ki, həmin şey yalandır. Yaxşı, indi mən soruşuram: Bir müddəa, inam barədə qorxum adi bir duruma çevrilirsə, bu, o müddəanın, inamın batil, yalnış olduğuna dəlalət edirmi?! Tutaq ki, sənin qorxun adiləşdi, rahatca şübhə etməyə başladın. Bu zaman görəsən, məntiqi baxımdan bu, o deməkdir ki, o müddəa, inam batildir, yalnışdır?! Əlbəttə, sualın cavabı bir mənalı olaraq mənfidir. Elə bu sualı bizə ünvanlayan nihlist adamın xarici varlığı barədə, mən əgər özümü inandırsam və şübhə etsəm ki, belə bir adam əslində xarici aləmdə yoxdur, sadəcə olaraq bir xəyaldır, bu zaman o adamın xəyal, yalan olmasını nəticə alsam, bu, nə qədər məntiqli, ağılabatan nəzərə çarpacaq? O adamın özü bu nəticəyə təslim olacaqmı? İki hal var: ya təslim olacaq ki, bəli, sənin nəticən düzdür və mən isə yoxam. Yaxşı, onda mən də belə nəticə alacam ki, sənin bu iradın da əslində özün kimi yoxdur, yalandır. Sənin bu məntiqinə görə, mən də özümü inandırıram ki, sənin bu iradın batil, yalandır. Ya da ki, bu adam alınan nəticəyə təslim olmayacaq və deyəcək ki, sənin nəticən yalnışdır. Bu durumda da, bu adam öz məntiqindən boyun qaçıracaq və məlum olacaq ki, öz iddiası, iradı da əvvəldən batıl imiş.

4. Sonda isə o adamın öz məntiqindən çıxış edərək, bizə tövsiyə olaraq dediyini özünə ünvanlayırıq: "Siz qorxaq olmadığınızı görsədin, inanmadıqlarınıza şübhə və ya şəkk edib onun var olmağı haqqda düşünün, əgər onda, sizin dediyiniz kimi, siz bu cür etsəniz, inanmağa başlayacaqsınız, görəcəksiz ki, iradınız boş bir cəfəng imiş.

**Emin İmanlı**

# İSLAMIN GÜLÜŞƏ MÜNASİBƏTİ

Hər dəfə 1 aprel - gülüş günü yaxınlaşdıqda zehnimizdə onlarla sual, gülüşlə bağlı indiyə qədər oxuduğumuz sitatlar, fikirlər canlanır: gülüş nədir? İnsan nəyə gülür? Niyə gülür? Gülüş nəyə qadirdir? Nə qədər zəruridir? Və bu anlarda, məsələn, Dosdoyeviskinin "Həqiqət göz yaşı və gülüşdən ibarətdir" və ya Anatol Fransın "Gülüş həyat mübarizəsində ən gözəl silahdır", - fikirlərini yada salırıq. Yaxud təsəvvürümüzdəki bütün bu sitatları unudaraq şəxsən cavablandırmağa çalışırıq gülüşlə bağlı bütün suallarımızı.

Və gerçəkdən də bu ilahi möcüzənin sehri bizi ovsunladıqca ovsunlayır və hər bir təbəssüm, gülüş hər dəfə digərindən daha yeni, daha fərqli gözəl mənzərə yaradır.

Hər kəs özünəməxsus tərzdə zarafatlaşır, əylnənir, deyib-gülməyə can atır. Kimini incə bir yumor vəcdə gətirir, kiminin də gülməsi üçün mütləq bir təlxək min hoqqadan çıxmalıdır. Bütün bunların fonunda yenə də düşünürsən ki, kim nəyə və necə gülürsə, qoy gülsün, əsas gülüşdür, onun estetikasıdır. Qoy gülüb də bir qədər yüngülləşsinlər, mənfi enerjilərdən bir neçə saatlıq da olsa yaxa qurtarsınlar.

Hər ölkənin demək olar ki, öz aprel zarafatları, zarafat tərzləri var. Bütün bu zarafatların kökündə isə təəssüflər olsun ki, bir yalan, aldatma yer alır. Məsələn, bir sıra ölkələrdə (İngiltərə, Avstriya,Yeni Zelandiya, Zimbabve) bu zarafatlaşmalar günortayadək davam edir, yalan deyib, kələk gəlib əylənirlər. Amma bu vaxtdan sonra isə yalan deyən şəxsə "April Fool" – "Aprel əbləhi" ayaması verilir.

Gülüş gününün (aldatma, kələk günü də deyə bilərik əslində) nə vaxtdan qeyd edilməsi haqqında müxtəlif ehtimallar irəli sürülür. Bir rəvayətə görə, Fransa padşahı IX Karl 1564-



cü ildə Qriqori təqvimində islahatlar apararaq apreldə keçirilən yeni il bayramlarını yanvar ayına salır. Bu addıma qarşı olanlar bayramı bir apreldə keçirməkdə israr edirlər. Amma bu, onlar üçün asan başa gəlmir. Yaxınları, ətrafları onları ələ salıb, "aprel axmaqları" adlandırmağa başlayırlar.

Və ya deyilir ki, 1 aprel gününün tarixi İspaniyanın süqutu ilə bağlıdır. Belə ki, XV əsrin sonlarında səlib ordusu İspaniyada müsəlmanları mühasirəyə alır. Bununla belə müsəlmanlar müqavimət göstərib, təslim olmaq istəmirlər. Bunu görən düşmən komandiri hiyləyə əl atır: 31 mart gecəsi müsəlmanların sığındığı qalanın önünə gəlib, əlində tutduğu Quran və İncilə and içib deyir ki, təslim olacağınız təqdirdə bu axşam təhlükəsizliyiniz təmin ediləcək. Çıxılmaz vəziyyətdə qalan müsəlmanlar da onun sözünə inanıb, təslim olurlar. Təbii ki, komandir sözünü tutmur, səhəri - 1 apreldə müsəlmanların qətlinə fərman verir və bu hiyləgər addımına - andım dünənə aid idi, bu günə deyil, - deyərək haqq qazandırmağa çalışır.

Bu günün tarixi ilə bağlı başqa ehtimallar da mövcuddur, amma şübhəsiz, məqsədim bütün uyğun tarixi faktları qeyd etmək deyil. Sözümün qısası daha çox gülüşlə, yumorla bağlıdır, əlbəttə ki, İslamın bu mövzuya baxışını əsas tutaraq.

Gülüş, insanın ruhi vəziyyətini, duyğularını əks etdirən bir haldır. Şən ikən gülən, kədərlənərkən ağlayan bir varlıqdır insan, belə xəlq olunub, xəmiri belə yoğrulub (Nəcm, 43). Ruhunu qidalandırdığı kimi, hələ üstəgəl orqanizminə də təsirsiz ötüşmür - immun sistemini gücləndirir, ağrıları sakitləşdirir, stresi azaldır. Elə isə gülmək, şənlənmək din tərəfindən niyə qadağan edilsin ki? Belə bir iddia çox absurd səslənir, deyilmi?

Gülüş səbəbləri müxtəlifdir: bəzən, sevincdən, ürəkdən, xoş hadisənin nəticəsi olaraq üzlərdə gülüş bərq vurur, bəzən isə gülüşün, təbəssümün arxasında xəfif kinayə, istehza gizlənir. Birincisi nə qədər ülvi, gözəldirsə, ikincisi bir o qədər eybəcər, xoşagəlməzdir. Quranikərimdə birincisi üçün hz. Süleyman və (27: 19) İbrahim peyğəmbərin xanımı Saranın (11: 71) gülüşünü misal göstərmək olar. İkincilər haqqında isə onlarla ayədə (43: 47; 83: 29; 23: 110 və s.) söz açılır.

Gülüşlə möminlik arasında bir sıx əlaqə var, düşünürəm. Bunun üçün bir neçə səbəb göstərmək olar. Məsələn, birinci səbəb elə gülməcələrin adında gizlənib - lətifə. Lətifə lətafət, incəliklə qarışıq bir sözdür, məfhumdur. Əsl incəlik, şirin yumor ancaq saf ruhdan, hüzur dolu qəlbdən yarana bilər.

Mömin həm də azaddır. Heç bir qəbahət, aldadıcı təmtəraq əl-ayağına dolaşmır. O, bütün bunların fövqündə

yer alır, yüksəldikcə yüksəlir. Aşağıda baş verənlər onu niyə narahat etsin ki? Tarixin ən faciəli hadisəsinə baxaq - Kərbəlaya. Nəql edilir ki, İmam Hüseynin qoşunu həmin gün daha şən idi, bir-birləri ilə şən zarafatlar edirdilər.

Bir müdrikin dəyərli sözü yerinə düşür: insan nə qədər azaddırsa, bir o qədər şəndir. Gerçəkdən də belədir. Daha çox kafirlər qəm-qüssə içində olmalıdırlar ki, onları necə də sərt əzab gözləyir (9: 82.)

“Mən də zarafat edirəm, amma yersiz söz danışmıram”, - bu, adətən üzünü təbəssüm bəzəyən həzrət Məhəmmədin kəlamıdır. Siz də zarafat edərkən təhqirə keçməyin, şəbədə qoşub, lağlağı, yalan deyib birbirinizi alçatmayın, - demək istəyir Allahın elçisi. Çünki, kimliyimizin göstəricisinə çevrilir etdiyimiz hər zarafat, danışdığımız hər gülməcə.

Nəql edilir ki, həzrət Məhəmməd səfərlərin birində qulluqçusuna dəvələrin daha sürətlə getməsi üçün nəğmə oxumasını tövsiyə edir. Qulluqçu da canla-başla tapşırığı yerinə yetirir. Bir az keçir, Peyğəmbər zarafatla deyir ki, bir az ehtiyatlı ol, büllurlar qırılmasın. Yəni, xanımlara çətin olmasın.

Həmişə səhabələrinin könlünü zarafatla alırmış, onları darıxmağa qoymurmuş həzrət Peyğəmbər. Öncə özü gülməcələr deyər, məclisi şənləndirər, əhval-ruhiyyənin durulmasına can atarmış.

Ümumiyyətlə yerində, həddini bilib zarafatlaşmaq, danışıb-gülmək iman əhlinin xarakteri kimi səciyyələndirilir dini mətnlərdə.

Bəhlul Danəndə İslam yumorunun böyük nümayəndəsidir. Lətifələri bayağı deyil, səthilikdən uzaqdır. Zərif olduğu qədər fəlsəfidir, düşündürücüdür. Şirin olduğu qədər sərtdir, siyasi-ictimai hadisələrə bir etirazdır. Sanki dinin yumor haqqında nəzərdə tutduğu bütün kriteriləri özündə birləşdirir.

Gülüş həm də bir cənnət mükafatıdır. Allahın axirətdə əziz bəndələrinə bəxş edəcəyi nemətlərdən biridir gülüş (80: 38, 39).

**Niyam Aqil**

# Həqiqi oruc tutmaq üçün nə etməli?

Oruc tutmaq ancaq ac və susuz qalmaq demək deyildir. oruc tutan insan mənəvi və zahiri əməllərinə diqqət etməli və təqvalı olmağa çalışmalıdır. Bu zaman oruc bizi cəhənnəm atəşindən qoruya bilər. Oruc tutan insan həm dilinə, həm qulağına və həm də gözünə hakim olmalıdır. Bəzən oruc ancaq mədə orucu olur və yəni insan oruc olsa da, Allahın bəyənmədiyi işləri görər. (Erfan)

Həzrət Peyğəmbər (s) buyurur: “O qədər oruc tutan var ki, oruclarından aclıq və susuzluqdan başqa heç nə nəsibi olmaz”.

Həzrət (s) başqa yerdə buyurur: “Oruc əmanətdir və hər birinizə vacibdir ki, əmanətdar olasınız”.

Həzrət Peyğəmbər (s) mübarək əlini qulağına və gözünə qoyub buyurur: “Qulaq əmanətdir, göz əmanətdir. Yəni oruc zamanı qulaq o şeyə ki, Allaha qarşıdır, gərək bağlansın və göz Allahın qəzəbinə səbəb olan şeylərə nəzərini aşağı salsın”.

Hər birimiz bu mübarək Ramazan ayının qonaqlığına dəvət olunmuşuq. Hər kim bu süfrədə əyləşərsə, Allahın kərəmindən bəhrələnər və behiştin yolunu görər. Böyük əcr və mükafata çatar. Əgər insan sadəcə ac və susuz olarsa, məhsulu da aclıq və susuzluq olar.

Həzrət Peyğəmbər (s) səhabələrinə buyurur: “Sizə elə bir şeyi xəbər verim ki, əgər onu yerinə yetirsəniz, şeytan sizdən şərq və qərbin fasiləsi qədər uzaqlaşar?”. Deyirlər: “Bəli”. Həzrət (s) buyurur: “Oruc (şeytanın) - simasını qara edər, sədəqə - belini sındırar, Allah yolunda dostluq və saleh əməllə kömək etmək - köklərini qət edər. İstiğfar - damarlarını ayırar. Hər şeyin zəkatı vardır və bədənin zəkatı orucdur”.

Həzrət Peyğəmbər (s) buyurur: “Oruc tutan Allahın ibadətindədir. Baxmayaraq ki, yatağında yatsa belə. Ancaq o zamana qədər ki, müsəlmanın qeybətini etməz”.

İmam Sadiq (ə) buyurur: “Hər kim isti günlərdə oruc tutar və şiddətli susuzluğa düçar olar, Allah min mələyi ona məmur edər ki, üzünü sığallasınlar. Ona Haqqın inayətini müjdə versinlər. İftar edən zaman Allah buyurar: “Nə qədər iyi və ruhu pakizədir. Ey mələklər! Şahid olun ki, Mən onu bağışladım””.

İmam Sadiq (ə) buyurur: “Oruc tutan insan üçün iki sevinc vardır: biri iftar zamanı və biri isə Allah Təala ilə görüşən zaman”.

İmam Əli (ə) zərbətlənən zaman vəsiyyət edir və buyurur: “Sənə orucu vəsiyyət edirəm, çünki oruc - bədənin zəkatıdır. Əhli üçün hadisələrdən qalxandır”.

Həzrət Peyğəmbər (s) buyurub ki, Allah Təala buyurub: “Adəm övladının bütün əməli özü üçündür, orucdan başqa ki, o, Mənim üçündür. Mən ona mükafat verərəm. Oruc - mömin bəndənin Qiyamət günü atəşdən qalxanıdır. Oruc tutanın ağız iyi Allah Təala yanında müşk iyindən də ətirlidir. Oruc tutan iki halda sevinər: iftar zamanı ki, yeyər və içər. Və o zaman ki, Mənim görüşümə nail olar, onu behiştə daxil edərəm”.

Həzrət Peyğəmbər (s) buyurur: “Dörd nəfər vardır ki, onların duası geri qayıtmaz. Səmanın qapıları duaları üçün açılar və ərşə qədər gedər. Atanın övladına görə etdiyi dua, məzlumun ona zülm edənə görə etdiyi duası, ümrə edənin duası o zamana qədər ki, qayıdar, oruc tutanın duası o zamana qədər ki, iftar edər”.

Allah Təala bizləri həqiqi oruc tutanlardan qərar versin.

# AĞIL, DÜŞÜNMƏ VƏ MESAJ: Zumər / 18

***Quran insanları öz ayələri üzərində düşünməyə çağırır. [ "Onlar Quran barəsində düşünməzlərmi? Yoxsa qəlbləri qıfıllıdır?" (Muhəmməd: 24)] Bu, ilahi kitabın spesifik bir özəlliyidir. Bu isə o deməkdir ki, Quranda uyğunsuzluqlar, ziddiyyətli və ixtilaflı məqamlar mövcud deyil.[ "Onlar Quran barəsində düşünməzlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət (ixtilaf, uyğunsuzluq) tapardılar." (Nisa: 82)]***

***Quran nöqteyi-nəzərindən, düşünmə prosesi zamanı ağıldan mətni anlama vasitəsi kimi istifadə etmək lazımdır. Ağıldan bilik qaynağı kimi istifadə edilməsinə gəldikdə, bu, Quran ayələri üzərində düşünmə prosesində şərt deyil, çünki vəhy qaynağı kifayət qədər şəffaf və aydındır, ikinci bir qaynağın isə onu aydınlaşdırmasına ehtiyacı yoxdur. Deməli, düşüncə prosesi zamanı Quran ayələrində gizli olan mesajları anlamaq üçün ağıldan mətni anlama vasitəsi kimi istifadə etmək vacibdir.***

***Əfsuslar olsun ki, dini cameəmizdə "Quran ayələri barəsində düşünmə" vərdişləri yoxdur. Halbuki, Məhəmməd/24-ə əsasən, bu, dindarlar içərisində bir vərdiş halını almalıdır. Mövzunun əhəmiyyətini nəzərə alaraq, aşağıda nümunə kimi Zumər surəsinin 18-ci ayəsindən əldə etdiyim 18 çıxarışı oxucularla paylaşmaq istərdim. Uca yaradanımız belə buyurur: "O kəslər ki, sözü dinləyib onun ən gözəlinə uyarlar. Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləri də elə onlardır!" (Zumər: 18)***

***İndi isə əldə etdiyim çıxarış və mesajlar barədə:***



**1. Qızıl Quran qaydası**

Ayə üzərində düşündüyümüz zaman, qızıl bir Quran qaydası əldə edirik; "Sözü dinləyib onun ən gözəlinə uyma" qaydası. Bu qayda ümumi olub bütün biliklərə, yəni ilahi və bəşəri biliklərə şamil olur. İstənilən bilik sahəsinə daxil olduqda, yuxarıda qeyd olunan qayda əsasında hərəkət etməliyik, yəni nəzəriyyələri bir-bir araşdırıb onların ən gözəlini qəbul etməliyik.

**2. Kor-koranə tabeçiliyin inkarı**

Sözügedən qayda bütün bilik sahələrində kor-koranə tabeçiliyi birmənalı olaraq inkar edərək, alternativ yol kimi məqbul və qaneedici dəlil əsasında tabeçiliyi icazəli sayır. Bu, ayənin "...onun ən gözəlinə uyarlar."-hissəsindən əldə edilir.

**3. Rasional yanaşmanın zərurəti**

Ayədən əldə edilə biləcək digər bir mesaj isə hər növ məsələ və problemə rasional yanaşmanın qaçılmaz bir zərurət olmasıdır. Bu mesajı "Ağıl sahibləri də elə onlardır!" – cümləsindən çıxarış etmək olar.

**4. "Ən gözələ uyma" prinsipi-doğru yola yönəlmə**

Hidayət və doğru yola yönəlmə "Ən gözələ uyma" – prinsipi fonunda həyata keçə bilər. Ayədə "O kəslər ki, sözü dinləyib onun ən gözəlinə uyarlar." – cümləsindən dərhal sonra "Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir." -cümləsinin qeyd olunması buna aydın bir sübutdur.

**5. Xalis zəka və ümumi qayda əsasında hərəkət**

Xalis ağıl, zəka sahibləri yuxarıda qeyd olunan ümumi qayda əsasında hərəkət edən kəslərdir. Ayənin orjinalında işlədilən "əlbab" ifadəsi "lubb" sözünün cəm forması olub "xalis ağıl" mənasını ifadə edir.

**6. "Ən gözəl" ifadəsinin təsviri xarakterli olması**

"Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir." – cümləsinə əsasən, "ən gözəl" ifadəsi əxlaqi məna deyil, qneseoloji məna ifadə edir. Başqa sözlə desək, burada işlədilən "ən gözəl" təbiri normativ xarakterli deyil, əksinə, təsviri xarakterlidir. Yəni, məqsəd o deyil ki, insan seçim zamanı gözəl sözə deyil, ən gözəl sözə uymalıdır. Əksinə, burada yalnız bir seçim var, o da "ən gözəl"dir. Deməli, bu,

sözün reallığının ən gözəldən ibarət olduğunu bildirir.

**7. Ümumi qaydadan yayınma-zəlalət bataqlığına yuvarlanma**

Sözükeçən ümumi qaydaya əməl etməyənlər azmış kimsələrdir, çünki hidayət (doğru yola yönəlmə) ilə zəlalət (azma) arasında ikinci bir mərhələ mövcud deyildir. Bu mesajı "Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir." – cümləsindən əldə etmək olar.

**8. Dinləmə bacarığının prioritetliyi**

Dinləmə bacarığı dəyərləndirmə bacarığından öncə olmalıdır. Bu, "...sözü dinləyib onun ən gözəlinə uyarlar."– cümləsindən aydın bir şəkildə anlaşılır.

**9. Hidayətlə ağılın vəhdəti**

Hidayət və ağıl bir-birindən ayrılmayan iki həqiqətdir, belə ki, harada ağıl varsa, orada hidayət də vardır və əksinə. Ayənin son iki cümləsində bu iki fenomenin birlikdə qeyd olunması bunu bir daha təsdiqləyir.




**10. Ağılın Allah tərəfindən hidayət zərurəti**

Allah tərəfindən olan hidayət insana şamil olmadıqda, ağıl düzgün fəaliyyət göstərə bilməz. Deməli, ilkin şərt kimi ağıl Allah tərəfindən hidayət edilməli, doğru yola yönəldilməlidir. "Ağıl sahibləri də elə onlardır!"- cümləsindən qabaq "Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir."– cümləsinin qeyd olunması bu faktı göstərir.

**11. Önfərziyyələrdən arınma zərurəti**

Sözü dinləyib onun ən gözəlinə uyarkən, önfərziyyələrin müdaxiləsinin qarşısını almaq lazımdır ki, "ən gözəl" öz reallığı ilə insan üçün aşkar ola bilsin. Bu mesajı ayədə işlədilən həm "ən gözəl" ifadəsinin mahiyyətindən, həm də "xalis ağıl" ifadəsindən anlamaq olar.

**12. Dinləmə və dərhal dəyərləndirmə ardıcıllığı**

Sözü dinlədikdən sonra dərhal əməli olaraq dəyərləndirmə olmalıdır, çünki ayədə "fə" bağlayıcısından istifadə edilmişdir. Bu da, ərəb qrammatikasında ardıcıllıq ifadə edir.

**13. Ağılın əmin bir bilik qaynağı olması**

"Ən gözəl" söz Allahdandır. Deməli, ağıl da vəhylə yanaşı bir əmin bilik qaynağı kimi çıxış edə bilər, çünki Allah sözün ən gözəlinə uymağı hidayət kimi dəyərləndirir. Bu isə onun Allah tərəfindən olduğunu bildirir.

**14. Bəndə olmaq üçün dörd əsas komponent**

Bəndə olmaq üçün insan özündə dörd komponenti birləşdirməlidir:

a) Ağıl əsasında hərəkət;
b) Doğru dində olmaq;
c) Sözü dinləmə bacarığına yiyələnmək;
d) "Ən gözəl" arqumentlər əsasında öz inam şəbəkəsini formalaşdırmaq.

***"Onlar Quran barəsində düşünməzlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət (ixtilaf, uyğunsuzluq) tapardılar." (Nisa: 82)***

**15. Nəzərçi yanaşma alternativi**

Ayədən dərin bir mesaj olaraq ictihad və təqlidlə yanaşı, üçüncü bir yolun da olduğu qənaətinə vara bilərik. Bunu "Nəzərçı yanaşma" kimi adlandırmaq olar. Bu yanaşmada insan müxtəlif fiqhi rəylərlə, onların arqumentləri ilə bir "söz" kimi tanış olduqdan sonra, onların içərisindən ən gözəl və həqiqətə ən yaxın olanına uyur. Qeyd edək ki, üçüncü yol heç də cəmiyyətin bütün siniflərinə aid deyil, əksinə, bu yolu yalnız xüsusi bir bacarığa malik olan qrup qət edə bilər. Bu yolu müəyyən mənada təqlidə münasibətdə xüsusi bir yol kimi dəyərləndirmək olar.

**16. Deyilənə baxma zərurəti**

Dəyərləndirmə məqamında deyənə yox, deyilənə baxmaq lazımdır. Bu, aydın şəkildə "...sözü dinləyib onun ən gözəlinə uyarlar."– cümləsindən məlum olur.

**17. Sağlam yol- şüuri seçim**

Ən sağlam, əmin və sığortalanmış yol yalnız şüuri seçimdir. Bu mesaj ayədə işlədilən "sözü dinləmə" və "onun ən gözəlinə uyma" ifadələrindən başa düşülür, çünki dinləmə və uyma şüuri bir prosesdir.

**18. İlahi müvəffəqiyyət olmadan "ən gözəl"i seçə bilməyin mümkünsüzlüyü**

İlahi müvəffəqiyyət olmadan "ən gözəl"i seçmək mümkün deyil, çünki ayədə Allah-taala bu kimi seçim edənləri öncədən hidayət nemətindən faydalanan şəxslər olaraq təqdim edir.

**Emin İmanlı**

# BİR ŞƏHİDİN İZLƏRİYLƏ...

(I yazı)

## DETERMİNİZM



Şeylərin təbii gedişinin obyektiv səbəbiyyətə, qanunauyğunluğa tabe olması haqqındakı təlim determinizm (latınca– "determinare" sözündən olub müəyyən etmək mənasını verir) adlanır. Determinizmə qarşı obyektiv səbəbiyyəti, zərurəti, qanunauyğunluğu inkar edən təlim– indeterminizm dayanır. Maddi aləmdə səbəbiyyət (Determinizm) ən ümumi, universal xarakter daşıyır. Səbəbiyyətsiz bir hadisə yoxdur. Və ola bilməz!

Səbəb və nəticə bir– biriylə bağlı anlayışlardır. Başqa bir hadisəni doğuran hadisə ona nisbətən bir səbəb kimi çıxış edir. Səbəbin təsirinin axırı - nəticədir. Səbəbiyyət hadisələr arasında elə bir əlaqədir ki, hər dəfə biri olduqda, digəri də onun ardınca gəlir. Məsələn, suyun qızdırılması onun buxara çevrilməsinin səbəbidir, çünki hər dəfə su qızdırıldıqda buxar əmələ gəlməsi prosesi başlanır. Səbəbiyyət ən ümumi, universal və istisnası olmayan əlaqədir.

Səbəbiyyət münasibətləri həm də zəruri və birmənalıdır. Əgər səbəb ciddi müəyyənləşdirilmiş daxili və xarici şəraitdə yaranırsa, deməli həmin vaxt zəruri olaraq nəticə törənməlidir. Bu əlaqə o qədər birmənalıdır ki, Şotlandiyanın məşhur dinşünaslarından biri olan Andre Lonq (1844-1912) hətta Allahı belə bu dediyimiz (determinizm) səbəbiyyət qanunu əsasında tapır. O yazır: "İnsan gözünün önündə nəticələr görür (dağ, dərya, göy, yer və s.) və səbəbiyyət qanunu ona bu nəticələri hər hansı bir səbəb doğurmalıdır, deyir. Bu səbəbin – insanın özü və özü kimi varlıqların ola bilmədiyindən əmin olduğuna görə o, fövqəlbəşər bir qüvvənin (Allahın) səbəbiyyəti və yaradıcılığına istiqamətlənir".

Elə biz də bu yazıda əsasən səbəbiyyət münasibətinin zərurət və birmənalılığı məsələsinin üzərində dayanacağıq. Bəli, yuxarıda qeyd etdiyimiz kimi, determinizmə görə, səbəb varsa nəticə hökmən olmalıdır. Əgər siz etdiyiniz hər hansı bir cəhddən istədiyiniz nəticəni əldə edə bilmirsinizsə, bu o deməkdir ki, sizin səbəbinizdə qüsur var! Yoxsa, səbəb var olan kimi nəticənin də var olması mütləqdir, nəticə yoxdursa, bunun səbəbini səbəbdə axtarmaq lazımdır!

Bir cəhdin nəticə verməməsinin üç əsas səbəbi ola bilər:

### 1) Harmoniyasızlıq.

Ola bilər ki, siz səbəb və nəticə arasında olması lazım olan harmoniyanı yarada bilməmisiniz. Axı nəticə əldə etmək üçün səbəb və nəticə arasında olan harmoniya çox mühümdür. Misal üçün, siz eşitmisiniz ki, suyu odla isidib qaynatmaq olar və bunu həyata keçirmək istəyirsiniz. Neynirsiniz? Bir kibrit yandırıb və onu on tonluq su çəlləyinin altında tutursunuz. Siz bir kibritin atəşi ilə o su çəlləyini qızdıra biləcəksinizmi? Xeyr! Çünki səbəb və istədiyiniz nəticə arasında harmoniya yoxdur: - bir kibrit alovu on tonluq suyu qızdırmağa qadir deyil. Demək burada nəticənin əldə olunmamasının izahı, sizin səbəb və nəticənizin arasında harmoniyanın olmamasıdır!

Bəli, qarşıya qoyulmuş nəticəni əldə etmək üçün səbəbin olması kifayət deyil, həm də münasib səbəb seçmək lazımdır. Albert Eynişteyn gözəl deyirdi: "Dəlilik – eyni şeyləri təkrar edib fərqli nəticələr gözləməkdir". Bu nə deməkdir? Bu o deməkdir ki, insan etdiyi hər hansı bir əməldən istədiyi nəticəni ala bilmirsə, demək rəftarında (cüzi də olsa) dəyişiklik etməlidir. Bu məlum rəftar (səbəb olaraq) istənilən nəticəni verməsə, boşuna əlləşməyin mənası yoxdur, heç zaman da verməyəcək. Məhz bu məqamda təkrar biliyin anası deyil, vaxt itkisidir. Gecikmək olmaz, səbəbi dəyişmək lazımdır.

### 2) Səbəbin natamamlığı.

Cəhdinizin uğursuz olmasının başqa bir izahı isə səbəbin natamamlığı ola bilər. Səbəb tam olmayınca nəticə hasil olmayacaq. Məhşur "biz nəticəyə deyil, vəzifəyə baxırıq" ifadəsi bizi çaşdırmasın. Nəticə bizim üçün o zaman mühüm deyil ki, səbəblərimiz tam olsun. Biz səbəbi dəqiqliklə yaradaq, nəticə ilə işimiz olmasın, çünki səbəb tam yarandısa nəticənin baş verməsi zəruridir. Bizim üzərimizə düşən məsuliyyət nəticəni deyil, səbəbi yaratmaqdır.

Bəli, səbəbimiz tam deyilsə nəticə olmayacaq. Misal üçün, biz hər hansı bir hədəf seçir və o hədəfə doğru bir addım atırıq, istəyimiz də budur ki, ikinci addımı artıq hədəfin bir başa üzərinə qoyaq. Belə olmadıqda süstləşirik. "Biz etdik, niyə olmadı?" - deyirik. Cavab aydındır, ortada bir əməl, bir hərəkət, yəni bir səbəb var, amma bu səbəb tam səbəb deyil. Bir

addımla nəticəyə çatmaq olmaz axı, dayanmadan irəliləmək lazımdır! Tam olmayan səbəb təbii olaraq, istənilən nəticəni verməyəcək. Bizim vəzifəmiz səbəbi tamamlamaqdır. Kamil insanın işi bundan ibarətdir. O səbəbləri tamamlamaqla məşğuldur, nəticələri saymaqla deyil. Böyük insanlar səbəbləri tamamlaya-tamamlaya nəticələr doğurur, kiçik və özləri səbəb yarada bilməyən insanlar isə oturub böyüklərin nəticələrini sayırlar. Bu həmişə belə olub...

**3) Səbəbsizlik.**

Bəzi insanlarınsa belə bir işi də var. Onların "səbəbinin" problemi harmoniyasızlıq, ya natamamlıq deyil. Onlar ümumiyyətlə heç bir səbəb doğurmadan nəticə gözləyir. Onlar əlini-qolunu qatlayıb oturub və Allah istəsə belə edər, elə edər, deyir. Bəs Allah nə deyir? Allah deyir ki, mən həyatı universal qanunlarla (sünnələrlə) idarə edirəm və onlardan biri də "səbəbiyyət" qanunudur. Səbəbi doğurmamısansa nə qədər dua edirsən et, nəticəsi olmayacaq! Bəli, bizim dualarımızın qəbul olmamasının əsaslı səbəblərindən biri də məhz budur: Səbəb doğurmadan Allahdan bir başa nəticə istəyirik. Axı bu mümkün deyil. Sən səbəbi doğur, sonra Allahdan istə ki, o səbəbinə təsir yükü versin. Əsl dua belə olmalıdır, əsl dua hərəkətdən sonradır.

Böyük şəhidin Aşuradakı ləpirlərinin izinə düşdükdə görürük ki, Aşurada səbəblər tamdır! Ona görə də, ta o gündən bu günə kimi, öz nəticələrini doğurmaqdadır! Aşura səbəb meydanı idi, orada imam Hüseyn (ə) nəticə dalınca qaçmırdı, onun yeganə hədəfi səbəbi TAM doğurmaq idi. Aşurada zahirən heç nəticə də olmadı axı. Zahirdə Hüseynin (ə) qoşunu məğlub oldu. Amma bu, Hüseyni (ə) üzmürdü. Çünki o həzrət öz səbəbini tam doğurmaqla məşğul idi, onun tapşırığı, vəzifəsi bu idi, nəticə sonrakı məsələydi onun üçün. Çünki şəhid Allahın bu universal sünnəsindən xəbərdar idi: Səbəb tam doğdusa, (gec-tez) nəticə mütləq və mütləq olacaq!

Aşuranın bizə olan mesajları yalnız dini, ibadi mesajlar deyil, həm də həyati, həyatımıza istiqamət verən mesajlardır! Baxın, Şəhid fəryad edir: Səbəbi hələ doğurar-doğurmaz nəticəni saymağa başlama, vaxt itkisidir, səbəbini tam doğur! Və nəticə əldə etməmisənsə ətrafını qınamaqdan əl çək, onu-bunu günhalandırmaqdan usan, "səbəbini" gözdən keçir. Problem səbəbindədir, ya istədiyin nəticə ilə seçdiyin səbəb arasında harmoniya yoxdur, ya səbəbin natamamdır, ya da ümumiyyətlə səbəbin yoxdur və bu halda sən səbəbsiz nəticə gözləyirsən.

Hüseyn (ə) səbəbi düzgün seçib və tamam-kamal icra etdi. Nə oldu? Baxın, əsrlərdir ki, bəşəriyyət o səbəbin doğurduğu nəticələri sayır. Aşurada səbəblər elə düzgün, pak, xalis seçilib, elə dəqiqliklə tamamlanıb ki, onun nəticələri əbədiyyətəcən uzanacaq və uzanmaqdadır. Elə bilirsiz aşuranın yaratdığı alovu söndürmək istəyənlər olmayıb? Ehh, o qədər olub və var ki... Amma bu, haqdan yanan şamı söndürmək imkansızdır, çünki onu söndürmək Ulu varlığın həyatdakı "səbəbiyyət" qanununun kökündən dəyişməsi deməkdir. Ulu varlıq isə,

"Sən Allahın qanununda (universal həyat sünnələrində) heç vaxt, heç bir dəyişiklik tapmayacaqsan!" –deyə söz verir! (Fatir 43.)

**İlqar Kamil**

# Çətinliklərin həll edilməsində orucun rolu

Hədislərdən birində deyilir: "Nə zaman sizə xüsusi hadisə və ya çətinlik yaransa, onu dəf etmək üçün gərək oruc tutasınız. Orucun elə hikmətləri vardır ki, ruhu ali məqama çatdırar".

Həyat yolunda həmişə çətinlik olduğu üçün Quran bizə əmr edir ki, oruc tutaq. Quran bizlərin çətinlikdən çıxmaq yolunu səbirdə, yəni orucda görür.(Tebyan/Deyerler)

Bəs bu orucda hansı xüsusiyyət vardır ki, çətinlikləri həll edir? Əgər insan Allaha xatir oruc tutarsa, çətinliklərin açarı Allahın əlində olduğu üçün insana yol açar və işlərini asanlaşdırar. Quran buyurur ki, biz Siratül-müstəqim yolunda olan insanların işini rahatlaşdırırıq. Sonra da İlahi peyğəmbərləri (ə) bizim üçün nümunə çəkir.

Allah Təala əziz Peyğəmbər (s) barəsində buyurur: "Məgər Biz sənin sinəni (köksünü)genişləndirmədikmi? (Sənə bolluca səbir və hövsələ vermədikmi ki, böyük bir tutumla Xaliqə yetişmək və insanlarla rabitə qurmaq məqamını özündə yerləşdirəsən, elmlər, hikmət və din hökmlərinin mədəni olasan, İlahi mənbədən vəhy almaq və bəşər cəmiyyətinə onu yetirmək istedadına malik olasan və insanlara rəhbərlik və ümmətə atalıq edəsən). Və (nübuvvət) yükünün ağırlığını səndən götürmədikmi? (Onu sənin üçün yüngül etmədikmi?). Elə bir yük ki, onun ağırlığı sənin belini bükmüşdü. Və adını sənin (əzəmətin) üçün ucaltdıq (ki, bütün kainatda uca məqamlarda zikr olunsun, Allahın adı ilə birgə çəkilsin, tovhid və peyğəmbərliyə birlikdə şəhadət verilsin. Allah, mələklər və insanlar səni mədh etsinlər, şöhrətin tədriclə Yer kürəsini əhatə etsin və axirətdə Məhmud–bəyənilən olasan). (Bil ki,) şübhəsiz, hər bir çətinliklə yanaşı, bir asanlıq var". ("Şərh" 1-5).

Allah Təala bizə oruc kimi bir fürsət veribdir. Bu nadir tapılan fürsətdən istifadə edək və çətinliklərimizin açarı olan bu ibadətdən bəhrələnək. Əlbəttə, hər bir insanın sağlamlıq baxımından buna qüdrəti olmaya bilər. Lakin o kəslər ki, bu ibadətə qadirdirlər, gərək onu qənimət bilib, əldən verməsinlər. Orucla yanaşı, namazı və Quran oxumağı da unutmasınlar.

# FÜRSƏTLƏRİ QƏNİMƏT BİLMƏK

Allah Rəsulundan belə bir hədis var:

"Həqiqətən, sizin həyatınızda Rəbbinizin nəsimləri var. Diqqətli olun ki, ona üz tutasınız" (Biharul-ənvar, 68/221)

Yəni, bəzən sizin Rəbbiniz tərəfindən rəhmət yelləri əsir, diqqətli olun və çalışın ki, onlardan bəhrələnəsiniz.

"Nəhcül-bəlağə"də, qısa kəlamların içində belə bir cümlə var:

"İki şey axmaqlıqdan qaynaqlar: Şərait hazır olmamış (imkan yaranmamış) tələsmək və fürsət yarandıqda süstlük etmək". (363-cü hikmət)

Yenə də həmin kitabda o həzrət belə buyurub:

"Fürsət buludların keçib-getməsi kimi keçib-gedər. Buna görə də gözəl fürsətləri qənimət bilin". (20-ci hikmət)

Bu zəmində din böyüklərimizdən çoxlu sayda hədislər var; hamısı bir mətləbə işarə edir ki, o da insanın qarşısına çıxan fürsətlərlə bağlı diqqətli olması, onları hədərə verməməsidir.

Bu, həyatın ən mühüm göstərişlərindəndir: şəxslərin çoxuna nəsib olan müvəffəqiyyətlər onların istedad və ləyaqətindən daha çox fürsətlərdən bəhrələnmə istiqamətində zirək olmalarına bağlıdır. Həmçinin, digər qrupun bədbəxt və məhrum olmaları onların istedadsız və ləyaqətsiz olmalarından daha çox fürsətləti qaçırmalarına görədir.

Fürsətləri dəyərləndirmə Allahın nemətlərinə şükür etmək növlərindən biridir. Elə fürsətləri əldən vermək də bir növ nemətə küfür və nankorluq etməkdir. Allah Qurani-kərimdə buyurur ki, əgər nemətin qədrini bilsəniz, o neməti artıracağıq, yox, nankorluq etsəniz, əhəmiyyət verməsəniz, diqqətli olmasanız, o nemətin əldən çıxmasından əlavə, əzaba da



düçar olacaqsınız. (İbrahim, 7-nin məzmunu.)

Bu dəqiq prinsipə əsasən, əgər fürsətləri və Allah Rəsulunun buyurduğu kimi desək, Allah tərəfindən əsən mərhəmət nəsimlərindən düzgün istifadə edilsə, gələcəkdə belə fürsətlər çoxalacaq, səhlənkarlıq olsa, daha qarşıya fürsətlər çıxmayacaq.

Bilmək lazımdır ki, fürsətlər müxtəlifdir: Bəzi fürsətlər ildə bir dəfə qarşıya çıxa bilər. Məsələn, əkinçiliklə məşğul olan şəxs ildə bir dəfə əkin-biçinlə məşğul olur. Bəzi fürsətlər həyatda bir dəfə olur, məsələn, məşğuliyyətlərin az və cismin sağlam olduğu elm öyrənmək üçün münasib vaxtlar olan gənclik dövrü. Aydın məsələdir ki, bir nəfər tələbə bu dövrdə təhsil və mütaliənin zəhmətlərinə qatlaşsa, sonrakı dövrlərdə fikri və elmi azuqələrə sahib olacaq. Amma əgər gəncliyindən bəhrələnməsə, günlərini şəhvətpərəstlik və mənasız məşğuliyyətlərlə keçirsə, cisminin zəiflədiyi, həyatın çətinliklərinin çoxaldığı dövrdə təəssüf və həsrətdən başqa ona heç nə qalmayacaq. Allahın Elçisi buyurub: "Beş şeyi beş şeydən qabaq qənimət bilin... gəncliyi qocalıdan qabaq".

Bəzi fürsətlər əsrlərdən sonra bir dəfə qarşıya çıxır. O, millətlərin qarşısına çıxan fürsətlərdir. Bu fürsətlərdə millətlər öz taleyini dəyişə, ictimai dərdlərinə çarə edə bilər. Neçə əsrlərin keçməsindən sonra millətlərin qarşısına çıxa biləcək fürsətlərdən biri cəmiyyətin bir fikir ətrafında cəmləşməsidir. Bu məsələ Qurani-kərimdə xüsusən bu məsələ nemət olaraq yad olunur:

"Allahın sizə olan nemətini yada salın ki, siz bir-birinizlə düşmən ikən qəlblərinizdə sevgi yaratdı".

Hədis var ki, Allahın əli camaatladır. (Nəhcül-bəlağə, x., 125) Alimlər deyirlər ki, buradakı "əl" qüdrətə işarə edir. Yəni, Allahın gücü camaata təmərküzləşib. Bu əsasla ən pis günah fitnə yaratmaq, ayrılıq salmaqdır. Həzrət Əli (ə) Peyğəmbərimizdən (s) sonra onun canişini olmağı mütləq şəkildə öz haqqı bilirdi. Amma görəndə ki, öz haqqını tələb etməsi müsəlman cəmiyyətinin parçalanmasına səbəb olacaq, susdu və digərləri kimi cəmiyyətin quruculuğu istiqamətində çalışdı və daxili parçalanmağa imkan vermədi.

İkiüzlü və fitnə yaratmaq və istifadə etməkdən başqa qəsdi olmayan Əbu Süfyan həzrət Əlinin yanına gələrək ona dedi ki, xəlifəlik sənin haqqındır. Ona niyə başqaları sahib olmalıdır? Mən adamlarımla birgə sənə kömək etməyə hazıram. Həzrət Əli bilirdi ki, o dini müdafiə adı ilə çaxnaşma salmaq istəyir, buna görə

də onu evindən qovdu. O həzrət buyurur:

"Fitnə dalğalarını nicat gəmiləri ilə yarın! Öyünməkləri boşlayın və parçalanma yollarından uzaqlaşın" (Əvvəlki mənbə, x., 5)

Həzrət Əli Əbu Süfyanın sözlərinə qulaq asmadı, çünki müsəlmanların vəhdətinə xələl gətirmək və onları zəiflətmək istəmirdi. O istəmirdi ki, Peyğəmbərin neçə illik zəhmətləri, özünün və bir qrup müsəlmanın fədakarlıqları nəticəsində yaranmış fürsət belə şeylərlə əldən çıxsın.

Beləliklə də, o dövrün müsəlmanları bu fürsətdən bəhrələndilər, o böyük gücü işə saldılar və qarşılarındakı bütün maneələri aşdılar.

Xoşbəxtlikdən bu böyük nemət son dövrlərdə bizim də qarşımıza çıxıb. İndi o nemətdən bəhrələnmək və birliyimizi qorumaq vaxtıdır. Biz bu böyük ictimai güclə ağır ictimai dərdlərimizi sağalda bilərik, səadət qapılarını taybatay üzümüzə aça bilərik. Digər yandan da, bu güclə xarici düşmənlərlə mübarizə apara və öz müstəqilliyimizi qoruya, itirdiyimiz haqları qaytara bilər, digər tərəfdən də daxili nasazlıqları sazlaya və fəsadları ortadan qaldıra bilərik.

Allahdan bizə islah uğrunda müvəffəqiyyətlər verməsini diləyirəm.

Doğru yola və düzgünlüyə tabe olanlara salam olsun!

**M. Mütəhhəri.**

*"Hikmətlər və Nəsihətlər" (II kitab)*

*Tərcümə etdi: Dilman Şahmərdanlı.*



# ORUC TUTMAYANIN BƏHANƏLƏRİ

***Bəhanə:*** *Mən hesab edirəm ki, ən başlıcası – insanın qəlbinin təmiz olmasıdır. Oruc tutmaq isə o qədər də vacib deyil.*

***Cavab:*** *Mübarək dinimiz də qəlbin təmizliyini əsas amillərdən sayır. Amma məhz elə oruc həmin bu qəlb təmizliyinə nail olmağın zəruri elementlərindəndir.*

***Bəhanə:*** *Mən Allaha inanıram və məncə bu kifayətdir. Oruc tutmağa isə ehtiyac görmürəm.*

***Cavab:*** *Çox gözəl. Amma iş burasındadır ki, sənin inandığın o Uca Allah oruc tutmağı sənə vacib bilir. "Ey, iman gətirənlər! Sizdən əvvəlkilərə yazıldığı kimi, sizə oruc yazıldı və qərara alındı ki, bəlkə təqvalı olasınız" (Qurani-Kərim, 2:183-184).*

***Bəhanə:*** *Yayda oruc tutmaq mümkün deyil.*

***Cavab:*** *Bəs onda, orucluğun yay aylarına təsadüf etdiyi saysız-hesabsız hallar necə olsun? Bəs, isti iqlimi olan ölkələrdə oruc tutanlar necə? Sözsüz ki, milyardlarla oruc tutan insanın nümunəsi dediyinizin əksini sübut edir.*

***Bəhanə:*** *Mən qorxuram ki, zəifləyərəm, dözə bilmərəm. Mənim üçün çətin olar.*

***Cavab:*** *Qətiyyən qorxmayın! Sizdən qat-qat zəif olan insanlar da oruc tutur və bundan yalnız fayda aparır. Yeri gəlmişkən, əgər Siz xəstəsinizsə və oruc tutmağın Sizə ziyan barədə əsaslı həkim rəyi varsa, bu halda Siz oruc tutmamalısınız.*

***Bəhanə:*** *O qədər namaz qılıb, oruc tutan tanıyıram ki, özlərini layiqli aparmırlar.*

***Cavab:*** *Bəs belə isə, Siz o kəslərdən olun ki, namaz qılıb, oruc tutur və öz ləyaqətlərini qoruyurlar.*

***Bəhanə:*** *Mən niyyət etdim ki, filan arzum yerinə yetsin, amma...*

***Cavab:*** *Biz öz Yaradanımıza şərtmi qoyuruq? Özü də ki, biz haradan bilə bilərik ki, xeyrimiz haradadır, ziyanımız harada... Məsələn, ola bilər ki, avtomobil barədə olan yerinə yetməmiş arzumuz bizi ağır bir qəzaya gətirəcəkdi...*

***Bəhanə:*** *Ramazan ayının bir və ya üç günü oruc tutmaq yetər...*

***Cavab:*** *Təbii, üç gün də, lap elə bir gün də oruc tutmaq olardı. Amma iş burasındadır ki, Allahımız bizə bir ay boyunca oruc tutmağı buyurub. Onun bizim xeyir və ziyanlarımızı hər kəsdən yaxşı bildiyi halda, Onun buyuruqlarına dəqiq əməl etməmək hansı məntiqə sığardı?!*

# İNTİHARIN KÖLGƏSİ



Bəşər övladına bəxş edilən gözəlliklərlə dolu bu həyat, sözsüz ki, bir sıra eniş-yoxuşlara və çətinliklərə də malikdir. Lakin bizi əhatə edən, amma görmədiyimiz, əsl həqiqətdə qəflət içində olduğumuz və yaşamaq sevinci yaradan, hər anımızın qədrini bilməyə səsləyən o qədər saysız-hesabsız gözəl səbəblərimiz vardır ki... Kiçik sevincimiz belə bizə nə qədər xoş əhval-ruhiyyə bəxş edir. Həyatın xırda bir ləzzəti, bir körpənin üzündəki təbəssüm bizim üzləşdiyimiz çətinliklərin qarşısında nədir ki... Eşitdiyimiz kiçik bir xoş söz azalınca, sanki, səbirsizliklə küskünlüyə, əzgin və qəmginliyə sarı qaçırıq. Bəzən insan nədənsə bütün bu gözəllikləri, xoşluqları və ləzzətləri unudur, fikrini pis xatirələrin və xoşagəlməz hadisələrin üzərində cəmləyir. Özünü görmür, kölgəsini görür. Qara, qapqara... Üzləşdiyi problem hər nədirsə, onun qarşısında sınmağa və məğlub olmağa səy göstərir. Axı bizim xırda bir sevincimiz də ruh yüksəkliyimizə səbəb olar bilər. Bu sevinci, nə özümüzdən və nə də ki, başqalarından almaq insaf deyildir. İradəli olmaq, dözümlü olmaq, mübarizə ruhumuzu xırda şeylərin qarşısında itirməmək lazımdır. Xırda deyirəm, çünki hər bir çətinlik, insan övladının möhkəm iradəsi və əzmi qarşısında doğurdan da kiçilir və cılızlaşır...Sözsüz ki, bu iradəni özümüzdə biz yaratmalıyıq.

Amma unutmayaq ki, başqalarının intihara meyl göstərdiyini müşahidə etdiyimiz zaman, hər birimizin üzərində böyük məsuliyyət vardır. Media nümayəndələri, elm, qələm sahibləri, ruhanilər və sair bu sahədə böyük rola malikdir. Hamımız bilirik ki, intiharın qarşısı yalnız maarifləndirmə yolu ilə alına bilər. Bunu sırf siyasi, iqtisadi və başqa amillərə bağlamaq sadəlövhlük olardı. Çünki araşdırmalar göstərir ki, dünyada bu amillərdən qaynaqlanan intiharların sayı, başqa amillərlə müqayisədə çox azdır. Əsas məsələ, insanlara inam və iradə bəxş etməkdir. Onların sağlam düşüncəyə, gələcəyə inama, əzmə, qayğıya, sevgiyə və ətrafındakı insanları belə şəxsləri anlamasına daha çox ehtiyacı vardır. Bu kiçik və qısa məqalədə intihar meyli və fərdi çıxış yolları haqqında bəzi məlumatları təqdim edirik:

İntihara meyl göstərməyə təkan verən amillər: İntihara meyl etməyin müxtəlif amilləri ola bilər. Bunların sırasında; ruhi xəstəliklər, irsi amillər, kənar təhriklər, depressiya, üzləşdiyimiz çətinliklər qarşısında uğursuzluq, özünə inamın itməsi, ümidsizlik, üzünün dəyərinin olmamasına inam, cəmiyyətdən (təzyiqlərə görə) intiqam almaq, nəyisə sübut etmək, diqqət cəlb etmək, nümunə götürmək, bezginlik, xəyanətlə üzləşmək, rədd edilmək və sair.

İntihar etmək haqqında ilk fikirləşdiyimiz zaman nə etməliyik?

***1- İlk olaraq bu sahədə tam ixtisaslaşmış təcrübəli həkimə müraciət etmək lazımdır.***

***2- Bizə ən yaxın olanlara sakit şəkildə bu haqda söyləmək lazımdır.*** Valideynlərimizə, həyat yoldaşımıza, dostumuza, müəllimimizə, hörmət bəslədiyimiz bir ruhaniyə dərdimizi deməliyik.

***3- Bizi intihara meyilləndirməkdə təsirli olan neqativ mühitdən uzaqlaşmalıyıq. Daha pozitiv, həyat eşqi, yaşamaq həvəsi yaradan və sağlam əyləncəyə malik, pis vərdişlərdən uzaq mühitə üz tutmalıyıq.***

***4- Sizi narahat edən şey haqqında aydın şəkildə bir dəftərə yazın. Sonra isə onu necə həll edə biləcəyinizi sakit şəkildə və inamla düşünün, bu barədə yaxınlarınızdan, həmin çətinlik sahəsində təcrübəli şəxslərdən məsləhət alın. Unutmayın ki, üzləşdiyiniz problem hər nədirsə, mütləq bir çıxış yolu mövcuddur. Ancaq bu yol intihar deyildir.***

***5- Bədbinliyə düşməyin çıxış yolu olmadığını bir daha düşünün. Üzləşdiyiniz problemin mənfi cəhətlərini deyil, müsbət cəhətlərini də fikirləşin. Sözsüz ki, problem hər nədirsə, onun bir çox hallarda müsbət yönü də vardır.*** Məsələn, bəzən intiharlar cavabsız eşq və yaxud da ailədə olan xəyanətdən sonra baş verir. Bir halda ki, belə olduğu zaman, sizi sevməyən və dəyər verməyən bir şəxsdən yaxa qurtardığınızı fikirləşin. Belə bir şəxsdən yaxanızı qurtardığınıza sevinin. Zahiri gözəlliyi hər necə olursa olsun, sizi sevməyib, dəyər verməyən bir şəxs sizin nəyinizə lazımdır? Qoy, o sizi

itirdiyi üçün, doğruluğa və sədaqətə qiymət verən sizin kimi bir şəxsi əldən verdiyinə görə təəssüflənsin. Çünki bu, əsl həqiqətdə, sizin uğurunuz, onun məğlubiyyətidir.

***6- Sizə dəyər verən və xoş günləriniz, gözəl münasibətləriniz olduğu şəxsləri, yaxınlarınızı fikirləşin. İntihar etdiyimiz zaman onların halı necə olacaq?*** Söz-söhbət, dava-dalaş hər bir münasibətdə mövcuddur. Heç kim iddia edə bilməz ki, onların münasibəti tam şəkildə ideal və qüsursuzdur. Əksinə, ailə daxili bəzi söz-söhbətlər, böyüklərimizlə-kiçiklərimizlə, sevdiklərimizlə ara-mızda baş verən narazılıqlar, bizim bir-birimizi daha yaxşı tanımağımıza yardım edir. Mübahisələr bir-birimizin xüsusiyyətlərini yaxından öyrənib, ona uyğun hərəkət etməyimizə zəmin yaradır. Lap belə fərz edək ki, kiminləsə heç bir formada yola gedə bilmirik, özü də ki, həmin şəxs bizim ən yaxınlarımızdan biridir. Bunun məntiqi çarəsi intihar deyil, onu tərk etməkdir.

***7-Bunu bilməyik ki, hər bir insan həyatda dəfələrlə özünü tənha, kimsəsiz, köməksiz, özünə inamını itirmiş hiss edir və ümidsizliyi təcrübə edir. Bir halda ki, bu keçici bir hissdir. Bəzən hamımız zəhmətlərimizin boşa getdiyini fikirləşirik.*** Bunu ciddi qəbul etmək doğru deyildir. Çünki, əslində, heç kim tənha, kimsəsiz deyildir. Heç kimin zəhmətləri hədər ola bilməz. Ətrafımızdakı insanlar bizi təqdir edir, səylərimizə dəyər verir və doğrusu çox hallarda qibtə ilə yanaşırlar. Amma kimsə bunu bizə büruzə vermir. Bu təbiidir. İnsan övladı çox vaxt hisslərini müxtəlif səbəblərdən gizlədir. Amma ətrafımızdakıların bizi görməməzliyi mümkün olan bir şey deyildir. Görür. Amma bizə ifadə etmirlər.

***8- Əgər bizə qarşı insanların rəftarlarını dəyişdiyini düşünürüksə, bizə qarşı laqeyd və qayğısız olduqlarını fikirləşiriksə, yanılmışıq. Çünki doğrusu dəyişən bizik. Buna biz səbəb olmuşuq, ətrafımızdakılarla əlaqələrimizi gücləndirmək öz əlimizdədir. Əgər onlar addım atmırsa, bu addımı alicənablıqla biz də ata bilərik.***

## İntihara cəhd edəcək şəxsin əlamətləri:

1- İntihara meylli insan bu haqda yaxınlarına danışır. Bunu ciddi nəzərdə almaq lazımdır. Belə şəxslərlə bu barədə zarafat etmək, onu ələ salmaq və yaxud təsdiqləmək olmaz. Çünki istəmədən də olsa, belə şəxslərin intiharına təkan verə bilərsiniz. Diqqət etmək lazımdır ki, intihara meylli insanlar ətrafındakıların ona lazımı şəkildə dəyər verməməsini daim buna əsas tuturlar. Buna görə də, onların intihar edəcəyini sizə söyləməsini ciddiyə almamaq tam yanlış hərəkətdir. Əksinə, onun bu fikrinə məsuliyyətlə yanaşmalı və ona dəyər verdiyinizi söyləməlisiniz.

2- İntihara meylli insan, bunu icra etməyi düşündüyündə yaxınlarına qeyri-adi tərzdə ümidsizlikdən və həyatın dözülməz dərəcədə ağır olmasından, bunun üçün heç bir çıxış yolu olmamasından şikayətlənir.

3- Onlar yaxın əlaqə saxladığı şəxslərə qeyri-adi formada tez-tez ölümün gözəlliyindən və dünyanın çirkinliyindən söhbət açır.

4- Belə şəxslər, tez-tez naümid şəkildə və tam hissiyyata, emosiyaya qapılaraq ən yaxın bildiyi şəxsə "Mən ölsəm sən nə edərsən?"-deyə müraciət edir. Bu, tənhalıq və istənməmə hissinin ortaya çıxardığı sualdır.

5- İntihara meylli olan şəxs, istər şəxsi şəkildə və istərsə də telefonla yaxınlarına və ən əsası da küsülü qaldığı şəxslərlə əlaqə saxlayaraq, onlarla vidalaşır, onu bağışlamalarını xahiş edir və halallıq istəyir. Tez-tez qeyri-adi şəkildə vəsiyyət edir.

6- Yaxınlarına, yaxud da tanıdığı-tanımadığı şəxslərə qarşı qeyri-adi tərzdə daha əliaçıq, mehriban və ürəyi yanan olur. Malik olduqlarını bağışlayır, şəxsi əşyalarını hədiyyə edir və yaxud da çətinlikdə olan insanları gördükdə təəccübləndirici şəkildə onun halına ağlayıb-sızlayır.

7- Tanışlarına və yaxınlarına tez-tez qeyri-adi şəkildə "Siz mənsiz daha yaxşı yaşayarsız."-deyə müraciət edir.

8- Qəribə formada tənhalığa meyllənir. İnsanlardan kənarda qalmağa və cəmiyyətə qarışmamağa üstünlük verir. Yemək, yatmaq, dərs və sair kimi işlərdə nizamı tam pozulur, meylsizləşir. Bir çox məsələlərə qeyri-adi şəkildə tam laqeyd olur. Həddindən artıq yorğunluq, əzginlik, qəmginlik, zahiri görünüşünə heç əhəmiyyət verməmək və səliqəsizlik müşahidə edilir.

9- Depressiyada olduğu halda, birdən-birə tam şəkildə qeyri-adi formada dəyişir və şad, xoşhal və xoşbəxt bir şəxsə çevrilir. Bu vəziyyəti ciddi nəzərdə almaq lazımdır. Çünki belə şəxslər, bəzən intihar planlarını artıq hazırladıqları üçün birdən-birə özlərini xoşbəxt hiss edir və "qurtuluş"larının yaxın olmasını güman etdikləri üçün sevinirlər.

## İntihar etmək haqda fikir söyləyən şəxslə necə davranmalıyıq?

1- İlk öncə belə şəxsləri dinləmək qabiliyyətinə malik olduğunuzu onları tam şəkildə axıra qədər dinləməklə sübut edin. Ən əsası budur ki, soyuqqanlı olun. Qarşı tərəfi daha da həyacanlandırıb, qorxutmayın.

2- Hətta onu düşündüyünüz və sevdiyiniz üçün də olsa, əsəbiləşib təhqir etməyin. Kobudluq edib, intihar etməməsi üçün təhdid etməyin. Əks halda qarşı tərəfi daha da hiddətləndirib, bu xoşagəlməz işə təhrik etmiş olarsınız.

2- Ardınca, bu şəxslə münasibətiniz




miqdarında, ona qarşı sevginizi və dəyər verdiyinizi tam şəffaf formada söyləməlisiniz.

3- Belə şəxslərə başa salmaq lazımdır ki, intihar etdikləri zaman onu sevənlərin əhval-ruhiyyəsi olduqca pis və dözülməz olacaqdır. Onları düşünməsi lazımdır.

4- Belə insanları olduğu bədbin mühitdən çıxarıb, daha şən və şad mühitə aparmaq lazımdır. Əlbəttə, diqqətli olmalıyıq ki, belə şəxslər aşağı sosial təbəqəyə məxsusdursa, apardığınız mühit olduqca möhtəşəm və bahalı məkanlar olmamalıdır. Çünki bu, həmin şəxsin əhval-ruhiyyəsində daha da pis təsir edə bilər. Onda belə bahalı həyata əl tapa bilmədiyi üçün intihar hissi daha da güclənər. Məqsədimiz onun əhval ruhiyyəsini gücləndirməkdir. Bu gözəl təbiət, səmimi və istiqanlı dostlar, mənəvi hisslərlə inam yaradan, həyata və yaşamağa həvəsləndirən mühit olmalıdır.

5- Belə şəxslərə başa salmaq lazımdır ki, onların sıxıntı çəkdiyi hər nə isə, olduqca kiçik və keçici, müvəqqəti haldır. Bunun müxtəlif həll yolları mövcuddur. Və o, bunun öhdəsindən gəlməyə qadirdir. Bu yolda tək deyil, siz də bacardığınız qədər ona yardım edə bilərsiniz.

6- Belə şəxslərə anlatmaq lazımdır ki, onların olduğu şərait, dünyanın ən pis şəraiti deyil, əksinə bundan daha pis vəziyyətdə olanlar da var. Amma onlar intihar haqda fikirləşmir, yaşamaq üçün möhkəm iradə ilə mübarizə aparır və bir çox hallarda olduqları çətin şəraitə də mənfi yanaşmayaraq şükür edirlər. Başa salmaq lazımdır ki, bəzi insanlar onların şəraitində olmağı arzulayırlar.

7- İntihar fikrində olanlara anlatmaq lazımdır ki, dünyada heç bir şey göründüyü kimi kamil və qüsursuz deyildir. Hətta ən ali və nöqsansız görünən möhtəşəm insanlar və tam xoşbəxt görünüşlü böyük sərvət sahiblərinin də əsaslı problemləri mövcuddur. Çox zaman onlar da giriftar olduqları problemləri həll edə bilmirlər. Sizin qüsursuz gördüyünüz yalnız zahirdədir, əslində onlar da bir sıra çətinliklərlə üzləşirlər.

8- Belə şəxslərə həyatın həqiqətən də, onların gördüyü qədər pis olmamasını başa salmaq lazımdır. Əlbəttə həyatdakı çətinlikləri birbaşa inkar etsəniz, o, sizin onu anlamadığınızı, başa düşmədiyinizi düşünəcək. Buna görə də, bəzi cəhətləri (mövcud problemləri) razılaşmalı, amma kiçiltməlisiniz. Daha çox, həyatın gözəlliklərini olduğu kimi ona vəsf etməlisiniz. Başa salın ki, adi bir yağışın gözəlliyi, baharda açan kiçik bir çiçəyin gözəlliyini görməkdən özünü məhrum etmək, doğru deyildir.

9- Belə şəxslərə başa salmaq lazımdır ki, cəmiyyətdəki insanların hamısı pis ola bilməz. Bu məntiqi deyil. Sözsüz ki, onun qarşısına bəzi xoşagəlməz insanlar çıxa bilər və bu təbiidir. Amma cəmiyyətdə insani hisslərə sadiq, gözəl qəlbli şəxslər daha çoxdur. Bir neçə bədəxlaqlı şəxslər üçün qanını qaraltmağa dəyməz.

10- İntihara meylli şəxsə başa salın ki, onun sahib olduqları çox dəyərlidir. Sadəcə olaraq, malik olduqlarına həqiqi nəzərlə baxmalıdır. İstər şəxsi keyfiyyətləri və istərsə də ünsiyyət qurduğu insanlar, ailəsi, övladları, dostları və hətta işi və sair (xırda şeylər olsa belə) özünə məxsus maddi-mənəvi dəyərə malikdir. Və o da bunlardan birinə sahibdir.

11- Belə şəxslərə anlatmaq lazımdır ki, dünyada heç bir şey zəhmət olmadan əldə edilmir. Bu dünyanın qanunudur. Hətta zəngin insanlar belə (pis yollarla da olsa) çətinlik çəkmədən istədiyinə nail olmur. Ata-babalarından qalma mal-dövlətə sahib olanlar isə əslində bu zənginliyin ləzzətini bir sahədə hiss etsələr də, başqa bir cəhətdən məhrumdurlar. Çünki öz zəhmət və bacarığının, yaradıcılıq qabiliyyətinin bəhrəsindən faydalanmırlar. Sahib olduqları hər şey, əldə etdikləri talantlarının, istedadlarının deyil, bir baxışdan yanaşdıqda kiminsə uğurundan bəhrələnməkdir. Buna görə də belə şəxslərə baxıb köks ötdürməyə dəyməz.

12- Ən əsası isə, intihara meylli şəxsi, bu sahədə ixtisaslaşmış və təcrübə sahibi olan mütəxəssis psixoloqların yanına aparın. Getməkdən imtina edirsə, özünüz həkimin yanına gedib, intihara meylli şəxslər ilə necə davranmaq lazım olduğunu və onu hansı yollarla fikrindən daşındırmağın mümkün olmasını öyrənin. Unutmayın ki, onlar sizə intihar etmək fikrində olduqlarını söyləməklə, əsl həqiqətdə sizin onlara kömək etmənizi, başqa bir ibarətlə desək, köməyinizə ehtiyacı olduqlarını etiraf etmiş olurlar. Unutmayın ki, siz bu məsələdə məsuliyyətli olsanız, bir insana yenidən həyat bağışlamış olacaqsınız. Müqəddəs Kitabımızda buyurulduğu kimi, «Hər kəs kimsəni diriltsə bütün insanlara həyat bəxş etmiş kimidir.» (Maidə surəsi, ayə 32)

**Dr. Əfzələddin Rəhimov**

# ORUC - ictimai əxlaqı inkişaf etdirmək üçün ən təsirli amildir

***Fiqhin nəzərinə görə, oruc fərdi ibadətdir. Ancaq həqiqətdə oruc fərdi olsa belə, ictimai təsirlərə malikdir.***

***Oruc bir insanın Alahla rabitəsini tənzim edir. Ancaq bununla yanaşı, ictimai tərəfləri də vardır. Belə ki, Ramazan ayı daxil olan zaman bütün müsəlmanların vəzifəsi budur ki, oruc tutsunlar. Xüsusi şəraitdə olan insanlardan başqa. Bu zaman oruc ictimai bir vacibata çevrilir, hamı ona əməl edir. Bundan başqa insan oruc tutmaqla yanaşı, orucun haramlarını da tərk etməlidir.***

***İctimai orucun da vacib və müstəhəbləri vardır. Xeyir işlər, iftar vermək kimi. Bir növ cəmiyyət xeyir işlər görmək üçün çalışmalar, səylər edər və günahdan və fəsaddan uzaq olub, Qurana yaxınlaşar. Beləliklə deyə bilərik ki, oruc ümumi bir vacib əməl olduğu kimi, həm də ictimai bir hadisə sayılır. İnsanlar oruc olan zaman bir yerdə toplaşır, Quran mərasimləri və iftar məclisləri təşkil edirlər. Bu zaman pisliklərdən uzaq olur və ictimai rabitələrini möhkəmləndirirlər. Ona görə də oruc həm ictimai hadisədir və həm də kamil insanı formalaşdıran bir vacibatdır.***





Bir müsəlman oruc tutan zaman yalandan, nifaqdan uzaq olmalı və düz danışıb, xeyir işlər görməlidir. Başqalarına qarşı mehriban olub, ehtiram göstərməlidir. Bütün bu işləri cəm halında edərlər. Cəm halında toplaşıb, xeyir işlər görər və pisliklərdən çəkinərlər. Ona görə də oruc daha çox ictimai əxlaqa təsir qoyar.

Beləliklə deyə bilərik ki, oruc ancaq yemək və içməkdən qalmaq demək deyildir. Bəlkə ictimai və əxlaqi dəyərləri daha da inkişaf etdirmək üçün ən təsirli amildir.

Oruc cəmiyyətlə yanaşı, insanın özünə də çox təsir qoyan bir vacibatdır. İnsan bu ayda İlahi rəhmət qapılarının açıldığını dərk edir, hətta nəfəslərinin belə ibadət olduğunu başa düşür. Bununla da Allahın ona verdiyi nemətlərin çoxluğunu dərk edir və qəflət yuxusundan ayılmağa başlayır.

Orucun cəmiyyət üçün gətirdiyi ikinci fayda isə budur ki, adi həyatı dəyişər. Çünki adi şəraitdə olan zaman insan qəlbindəki qəfləti hiss etməz və Allaha diqqət etməz. Ramazan ayı gələn kimi ab-hava dəyişər. Bu ayda dua və münacata yer ayırar, Quranın sorağına gedər.

Allah zikri insan mənəviyyatına çox təsir edər. Onu günahdan uzaqlaşdırıb, qəlbinə səfa bəxş edər. Bu təsirin nəticəsində insanın əxlaqı dəyişər və hüsnü-əxlaqa çevrilər. Əxlaq da elə bir şeydir ki, cəmiyyətlə birbaşa əlaqəsi vardır. Əgər insanların əxlaqı gözəl olarsa, cəmiyyət də əxlaqlı və tərəqqiyə irəliləyən bir cəmiyyət olar. Əgər fəsad artarsa, bu cəmiyyət məhv olar. Ona görə də oruc bizim daxilimizi və ruhumuzu paklayar və bizi hüsnü-əxlaqa tərəf aparar.

Beləliklə deyə bilərik ki, Ramazan ayı mənəviyyat ayıdır və bu ayın gəlişi ilə insanlar 11 ay unutduqları ruhlarını xatırlayar və onu paklamağa, saflaşdırmağa çalışar, Allaha diqqət edər, Qurana yaxınlaşar və xeyir işlər görməyə səy edərlər. Bu yolla da cəmiyyətdə vəhdət və birlik yaranar və insanların əxlaqı islah olar. Oruc tutan insanlar bir-biri ilə rabitə qurar, dərdlərinə və sevinclərinə şərik olar, ictimai əxlaqı inkişaf etdirərlər. Bəli, orucun fərdi bərəkətləri ilə yanaşı ictimai bərəkətləri də vardır. Bu ayın bərəkətlərindən daha çox faydalanmağa çalışaq.

*(Tebyan/Deyerler.org)*

# QIRILMAZ İP!

**“Allah və (Onun) Rəsuluna itaət edin və heç bir vaxt aranızda ixtilaf salmayın ki, zəif olmağınıza və qüdrətinizin aradan getməsinə səbəb olar. Səbirli olun ki, Allah səbr edənlərlədir.” (Ənfal\46)**




İslam dini insanların maddi-mənəvi inkişafı və kamilliyə çatması üçün bir çox təməl qanunlara malikdir. Bu qanunlardan bir neçəsi daha çox əhəmiyyət kəsb edir. Hətta bu səbəbdən, onları əməli və praktiki surətdə göstərmək üçün bir sıra ibadətlər və əməllər də vacib edilib.

İslamın bu təməl qanunlarından biri də “VƏHDƏT”-dir ki, islamın çox önəm verdiyi bir mövzudur. Hal-hazırda da, müsəlmanlara hər bir şeydən daha çox lazım olan bir məsələdir. Allah-taalanın həcc mərasimini vacib etməsinin bir fəlsəfəsi də, müsəlmanların vəhdətinə təkan verməkdir. Cümə günləri müsəlmanların birlikdə qıldıqları cümə namazları islami vəhdətə çağırışdır. Dini bayramlar, o cümlədən; Qurban, Fitr və sair kimi bayramlar müsəlmanların vəhdəti üçün düşünülüb. Diqqət etsək, görərik ki, adi gündəlik namazların belə camaat namazı şəklində qılınması üçün nəzərdə tutulan saysız-hesabsız savablar da, məhz müsəlmanların birgə olmasına, birliyinə zəmin hazırlamaq üçündür.

Tarixə nəzər salsaq, Peyğəmbərimiz (s) 23 il peyğəmbərliyi zamanı, çoxsaylı nailiyyətlərə sahib oldu. Səbəbi isə vahid İslam ümmətinin olması və müsəlmanların qardaşlığı idi.

Qərb alimləri belə bir fikir səsləndirirlər ki, Qərb aləmi kilsə hakimiyyətindən çıxdığı zaman inkişaf etdi və müsəlmanlar da vəhdətlərini itirdikləri zaman zəiflədilər.

Bəli, vəhdətin açmadığı qapı və aşmadığı heç bir sədd yoxdur. Əgər bir müsəlman kimi həqiqətən də, İslamın inkişafını istəyiriksə, əl-ələ verib İslamın həqiqətini dünyaya tanıtmalıyıq.

Əgər İslamın müxtəlif firqələrinin davamçılarıyıqsa, ortaq etiqadlarımızın və inamlarımızın üzərində iş qurmalıyıq. Amma əgər eyni məzhəbin davamçısıyıqsa, İslamın inkişafı naminə çalışmalı və bəzi xırda-para məsələlərə göz yummağı bacarmalıyıq. Məhz nəfsani istəkləri bir kənara buraxmaq, məqam-mövqe hərisliyini ayaq altına almaq, fikir-düşüncə və səliqə ayrılıqlarına əhəmiyyət vermədən, ortaq nöqtələr üzərində uzlaşmaqla birliyimizi və vəhdətimizi qoruya bildiyimiz zaman, Allahın rəhmət nəzəri üzərimizdə olacaqdır. Əlbəttə bunu etmək üçün, güclü iman və iradə olmalıdır, əks təqdirdə etmək mümkün deyil.

Möhtərəm müsəlman bacı və qardaşlar, diqqət etməliyik ki, şeytan ilk növbədə inanclı insanlara, heç vaxt, Quran oxuma, məscidə getmə, namaz qılma deməz. Etdiyi əsas işlərdən biri vəhdətimizi əlimizdən almaqdır. Bu zaman, artıq Quran oxusaq da, onun həqiqətindən məhrum olmuş oluruq. Məscidə getsək belə, onun hədəfini itirmiş oluruq. Namaz qılsaq da, onun mahiyyətini və ruhunu əldə edə bilmirik. Çünki, diqqət etmək lazımdır ki, namaz qıldıqda oxuduğumuz ayələrdən biri “İyyakə nəəbudu və iyyakə nəstəin” – “Yalnız sənə ibadət edirik və yalnız səndən kömək istəyirik.” Yəni, Allah bizi ibadət halında belə, cəm və vəhdət halında tələb edir.

Amma çox təəssüflə qeyd etməliyik ki, müasir zamanda “vəhdət” günəşinin nurundan lazımı şəkildə bəhrələnmirik. İstər eyni məzhəb altında birləşən müsəlmanlar, istərsə də, müxtəlif məzhəblərə inam bəsləyən müsəlmanlar bu zərurəti kifayət qədər dərk etməmişdir. İslam ümmətini bir geniş gövdəli ağaca bənzətsək, onun yarpaqlarının eyni gövdədə və eyni maddədən təşkil tapdığını fikirləşin. Amma yarpaqlar ölçülərinə və biçimlərinə görə müxtəlifdir. Yarpaqlar bu fərqliliyi əldə əsas tutub, eyni gövdədən olduqlarını unutsa, hər biri budağından qopub, ağacı tərk etsə, sözsüz ki, çılpaq və gücsüz qalan, təravətini itirən yenə ağacın özü olacaq. Yarpaqlarsa öz növbəsində küləklə sovrulub gedəcək.

Unutmayaq ki, ixtilaf bir ümmətin inkişafının qarşısını alan, onu zəiflədən və məhvə sürükləyən ən başlıca səbəbdir.

İslam dini də bu qanundan xaric deyil və əgər həqiqətən də onun inkişafını istəyiriksə bütün tutduğumuz kin və təfriqə dolu xətləri bir mənada tərk edib, vahid bir xətdə dayanmalıyıq. Bu ilahi lütfünün şamil olduğu bir xətdir. Qardaşlıq, mərhəmət, şəfqət və güzəşt xəttidir. Gözəllikdir. Ucalıqdır. Kamillikdir. Gövdəyə sarılmış, vahid yaşıllıq və inkişaf xəttidir. Şəxsi mənfəətlərin və çıxarların, istər fikri, istərsə də mövqe

baxımından, rəddidir. Sülh, dostluq və əmin-amanlıq zəmanətidir. Bu zaman, artıq özünü "həqiqi islamın" müdafiəçisi sayan, islamı yalnız özünün düzgün düşündüyünü zənn edən, müxalif düşüncələrin azğınlıqda olduğunu fikirləşən tərəflər, artıq həqiqi islamın qardaşlıq, sülh və vəhdətdən ibarət olduğunu dərk edir. Ondan başqa yol, ikinci seçim isə sanki odla dolu bir uçurum və təfriqədir. Necə ki, Qurani-kərim buyurur: «Hamılıqla Allahın ipinə (dininə, Qurana) möhkəm sarılın və (bir-birinizdən) ayrılmayın! Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən O sizin qəlblərinizi (islam ilə) birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz od-dan olan bir uçurumun kənarında ikən O sizi oradan xilas etdi. Allah Öz ayələrini sizin üçün bu şəkildə aydınlaşdırır ki, haqq yola yönəlmiş olasınız!» (Ali-İmran/103.)

Sonda isə istərdim yaranan vəhdəti məhv edən çox önəmli bir amilə işarə edim.

Diqqət edin! Hər hansı bir məsələ ətrafında ixtilaf yaranır və bir neçə şəxslə söhbət edirsən və bütün sözlərinin canı vəhdətin zərurəti və onun bərpa olmasıdır. Yaxşı bəs nə qarşısını alır? Cavabı isə çox maraqlıdır. Belə ki, diqqət olunası nöqtə vəhdətin bərpa olunmasını şəxsi istək və şərtlərinin altında görürlər. Buna isə "vəhdət sevgisi" yox "şəxsi mənfəətlər sevgisi" deyilir. Əgər bütün bu şəxsi mənfəətləri kənara qoyub İslamın şərtlərinə əməl etsək o zaman vəhdət bərpa olar. Əgər bütün bu şəxsi mənfəətləri kənara qoyub, özümüzü, mövqeyimizi, şöhrətimizi və sair çıxarlarımızı kənara qoysaq, sırf islam ümmətinin səbatını və inkişafını düşünsək, o zaman həqiqi vəhdət bərpa olar.

Vəhdətin bərpa olunmasını şəxsi istək, düşüncə və şərtlərinin altında görmək vəhdət ruhuna zid-dir.

**Kamran Məmmədov**

# Fikri maariflənmə, azadlığa aparan yol



İnsanı başqa varlıqlardan fərqləndirən cəhət onun ağıl və düşüncəyə sahib olmasıdır. Ağıl və düşüncə qaranlıq otaqda yanan bir çırağa bənzər, öz sahibinə atacağı addımlarını doğru dürüst istiqamətə atmağını müəyyənləşdirir.

Məhz insanı azad bir varlığa çevirən, başqa canlılar kimi istəkləri əsasında deyil, istəkləri arasında seçim etmək gücünə sahib olması bundan qaynaqlanır. Azadlıq, bəşəriyyətin anadangəlmə təbii və tarixi bir sərvətidir. Həmişə onu ondan almaq istəyən hər bir kəsi özünə düşmən bilmiş və ona qarşı amansızcasına mübarizə aparmışdır.

Bu gün yaşadığımız cəmiyyətdə azadlıqdan danışanda əsasən ictimai azadlıq nəzərdə tutulur. Bir xalqın azad olması və yaxud kiminsə özünü cəmiyyətdə azad hiss edib azad yaşayaraq, başqaları tərəfindən onun azadlığının məhdudlaşdırılmamasını istəməsi kimi.

Amma, bizlər çox vaxt bir nüansı (məqamı) unutmuş və unutmaqdayıq. Hər bir ictimai azadlığın əsasında insanların ağıl və düşüncə azadlığı dayanır. Ağılın və düşüncənin azadlığına nail olmadan, başqa azadlıqdan söz açmaq mənasızdır.

Buna nail olmaq üçün isə onu düzgün şəkildə maarifləndirmək lazımdır. Yazımın əvvəlində, ağıl və düşüncəni qaranlıqda yanan bir çırağa bənzətmişdim. O, çırağın yanması üçün bizim hər hansısa bir enerjiyə ehtiyacımız olduğu kimi, ağıl və düşüncənin də ona ziya və parlaqlıq verəcək tükənməz enerjiyə ehtiyacı var. İnsan ağlına və zəkasına tükənməz enerji bəxş edən, ağıl və düşüncənin parlamasına səbəb olacaq əsas amil yalnız və yalnız maariflənmədir, daha doğrusu düzgün maariflənmədir. Maariflənmə dedikdə burda əsasən, elmi və fikri maariflənmə nəzərdə tutulur. Çünki elmi və fikri cəhətdən maariflənmə olmadan, başqa maarifçiliyi dəyərləndirmək mümkün deyil.

Fikri maariflənmə üçün ən gözəl vasitələrdən biri kitab mütaliəsidir. Kitab mütaliəsi yazıçı ilə oxucu arasıda yaranan qarşılıqlı dialoqudur. Başqa sözlə fikir mübadiləsi və disputdur. Kitab mütaliəsi insanın fikir və düşüncə inkişafına böyük təkan verir. Kitab oxumaq aynaya bənzəyir. Necəki insan həmişə paltar geyinərkən özünə çəki düzən vermək üçün aynanın qarşısına keçərək özünü səhmana salır. Mütaliə etmək də fikir və düşüncəni kitab adlı aynanın qarşısına qoyaraq, ağıl və düşüncəni səhv fikirlərdən təmizləyirsən.

Kitab, yəni düzgün maarifçilik, ayna kimi insana keçmişini göstərərək bugününü dəyərləndirib, gələcəyi qurmağı öyrədir. İnsan kitab oxuyan zaman istər istəməz düşüncə tərzi formalaşır və ətrafında baş verən prosesləri düzgün şəkildə dəyərləndirmə imkanına sahib olur. Nəticədə zamanla əyaqlaşaraq artıq ətrafında baş verən hadisələrə şəxsi münasibətini bildirir və kiminsə təsiri altına düşmədən fikri azadlığın sayəsində doğru istiqamətə qətyyətlə addımlayır.

Bir sözlə ağıl və düşüncə maariflənməsi olmasa, nə abidin 70 illik ibadətinin, nə də azadlıq bəxş etmək istədiyimiz cəmiyyətin dəyəri olar.

**Bəşər Məhəmmədli**

# İSLAM DİNİNİN ELMƏ VERDİYİ DƏYƏR VƏ MÜSƏLMAN ALİMLƏR



***"İnsanlara dünya həyatı barədə göstəriş vermir, elm oxumaq barədə təlimatlandırmır". Bu İslam dininə olan əks təbliğatın nəticəsidir ki, bu gün müsəlman aləmi də bu anti-İslam təbliğatının qurbanına çevrilib. Məxsusən, din düşmənləri tərəfindən yaradılan İŞİD,"Taliban","Əl-Qaidə" kimi "müsəlman" dini qruplaşmaları (əslində terror qruplaşmaları) bu gün dünyaya müsəlmanları qan tökən bir ideologiya üzvləri kimi göstərir. Bu gün təsadüfü deyildir ki, İslam dini dedikdə Qərb aləmində və inancsız kəsin fikrində qara geyimli xanımları olan ərəb şeyxləri, yaxud əbalı-əmmaməli mollalar canlanır və yaxud İslamda çoxarvadlılıq kimi məsələlər qabardılır. Quran ayələrindən isə yalnız "kafirləri harda tutdunuzsa, öldürün...", - kimi məzmunlu ayələr oxunulur (ayəni sona kimi oxuyanda isə həqiqət bəlli olur). Halbuki, İslam dini çoxarvadlılıqdan (bu bizim mövzumuza uyğun deyil deyə işarə edib keçirik), yaxud kafir başı kəsməkdən ibarət deyil. Əgər XXI əsrdə yalnız bu mövzular qabardılırsa, deməli bu məqsədyönlü şəkildə həyata keçirilir.***

İslam dini elmə çox yüksək dəyər verir - alimin mürəkkəbinin bir damcısını şəhidin qanından üstün bilir. Din müqəddəslərinin elm oxumağa təkid etdikləri hədsiz çox hədis vardır. Müsəlman aləminin bu gün elmsiz olması heç də İslamın belə bir göstəriş verməsi anlamına gəlməməlidir. Müsəlman dünyası məqsədyönlü şəkildə elmsizləşdirilmə siyasəti ilə üz-üzədir. Bəzi faktlara nəzər salsaq, bu kifayətdir ki, bu siyasətin necə işlədiyini görərik.

İqtisadiyyata vurulan zərbələr (hansı ki, kasıbçılıq istər-istəməz təhsilin səviyyəsini aşağı salır), əlifbanın dəyişdirilməsi kimi gedişlər elmsizləşdirmə siyasətinin sadəcə ilkin təməllərindən biridir. Məsələn, Uyğurların əlifbası son 30 ildə 4 dəfə dəyişdirilmişdir və buna oxşar siyasət vətənimizdə də həyata keçirilib. Bu yolla nəsillər arasında elmi irs qırılır və millət köksüzləşir. Yeni nəsillər öz əcdadlarının elmi irsindən yararlana bilmir və yeni əlifba ilə yazılmış 5-6 kitabdan asılı qalır. Bu 5-6 kitabı oxumuş tələbəyə ali məktəb diplomu versələr nə olar, verilməsə nə olar ?!

Osmanlının süqutundan sonra Fransa Əlcazairi işğal etdi və 132 il əsarətdə saxladı.Təhsil tamam ləğv edildi və ərəbcə danışmaq yasaqlandı. Vətandaşlara yalnız fransızca danışmağa icazə verilmişdir. 132 il ərzində müsəlman xalqının təhsil baxımından nə vəziyyətə gəldiyini düşünün. Müəyyən iğtişaşlar salmaqla, yaxud din aləmini sünnı-şiə məsələləri ilə çarxalamaqla, bəziləri öz istəklərini həyata keçirirlər və nəticədə müsəlman aləmi savadsız, barbar bir kütlə kimi görünür. Bosniya, Myanma, Çeçenistan, Fələstin, Kəşmir, Tunis, Efiopiya, Somali, Sudan, Əfqanıstan, Suriya, İraq (!)...

Xarici təsirlərin sayəsində hazırda siyasəti və iqtisadiyyatı çöküş vəziyyətində olan daha neçə müsəlman ölkələrini göstərək ?!..

Bəli, haqlı irad tuta bilərsiniz ki, xarici təsirdən qorunmaq üçün müsəlmanlar bir olmalı, oyuna getməməlidirlər. Əgər oyuna gedirlərsə, yenə günah müsəlmanlardadır. Bu barədə sizinlə razıyıq. Lakin əsrlər öncə ixtilafların toxumu necə məqsədyönlü şəkildə səpilibsə, bu gün ixtilaflar artıq pik səviyyəyə çatıb və demək olar ki,qarşısı alınmazdır. Ziyalı müsəlmanlar bu ixtilafları aradan qaldırmaq istəsələr belə, Qərb cəmiyyəti və bəzi qurumlar buna şərait yaradan deyillər. Çünki, bu hal baş versə, müsəlmanların yenə inkişaf dövrü başlayacaq. Necə ki, bir zamanlar dünyəvi elmlər üzrə əksər alimlər müsəlmanlar idi, necə ki, elmi kəşflər-ixtiralar edən müsəlmanlar idi, yenə bu tarix təkrarlana bilər və yenə bir Səlib yürüşünə ehtiyac duyulacaq ki, müsəlmanların qanı axıdılsın, başları müharibəyə qarışsın. Əgər İslam dini elm oxumağa əhəmiyyətsiz kimi yanaşırsa, necə olur ki, əsrlər öncə müsəlman alimləri dünyada məşhur idilər ?! Müsəlman elm adamlarının elə ixtiraları və elmi kəşfləri vardır ki, bu gün o ixtiralar hansısa Qərb aliminin adı ilə bağlanılır (kim olur-olsun,təki müəlman olmasın!).

Elmlərin dini və dünyavi olaraq iki yerə bölünməsi və bəzi şəxslərin din alimləri roluna girərək insanlara yalniz dini elmləri öyrənməyin vacibliyini təbliğ etməsi müsəlmanların çöküşünə daha bir səbəbdir. Halbuki, İslamda ilk açılmış irimiqyaslı təhsil ocağı olan 6-cı Əhli-Beyt imami Cəfəri-Sadiqin (ə) evində təşkil et-

diyi məktəbə nəzər salsaq, əksini müşahidə edərik. Əbu Hənifə, Malik bin Ənəs İmam Safii kimi sünni müctehidlərinin də təhsil aldıqları həmin məktəbdə dini və dünyəvilik anlayışları ayırd edilmədən tədris aparılmışdır. Heç təsadüfü deyildir ki, ilk kimya kitabının müəllifi də elə bu məktəbin məzunu olan Cabir ibn Həyyan (Geber) olmuşdur. Cabirin ən məhşur kitablarından biri 1672-ci ildə fransız dilinə çevrilib. Distillə, kristallaşma, ərimə, analiz və reaksiya kimi anlayışları ilk dəfə elmi şəkildə xəbər verən məhz Cabir olub. Optikanın "atası" da müsəlman olub - İbn əl-Heysəm. Platon və Evkilindin işıq şüalarını gözlə əlaqəsi haqqında nəzəriyyənin səhv olduğunu sübut etmişdir. Avropada "Alhazen" kimi məşhur olan ibn-əl Heysəm dördüncü qüvvənin tənliklərinin həlli üsullarını göstərib. Bu məsələ ilə 550 il sonra italyan riyaziyyatçısı Kardano maraqlanıb.

Abbas bin Firnas Rayt qardaşlarından min il əvvəl təyyarəni kəşf etmişdir. Lakin onun kəşfinin bir nöqsanı var idi. Quyruq hissəsinin dizayn etmədiyi üçün təyyarəsi yerə enərkən qəzaya uğrayırdı. Rəngsiz şüşə, su saatı, eynək linzaları kimi ixtiralar da ona məxsusdur.

Cərrahiyyənin atası Əbül-qasım əl Zəhrəvi."Kitab əl-Təsrif"in müəllifi.. Bu gün xəstəxana da cərrahlar tərəfindən işlədilən bir çox alətin və sorulan cərrahi sap olan ketqutun ixtiraçısıdır. Hemofiliyanın irsi olması ideyasını irələ sürmüşdür. Cərrahi əməliyyat zamanı termokoaqulyasiyaya və damarların liqaturaya alınması metodu da ona məxsusdur.

Əl-Cəzəri - fizik, mühəndis. Mühərriklərin porşent və fil saatı kəşf edən alim. Məhəmməd Xarəzmi (IX əsr) cəbr (əl-cəbr) elminin əsasını qoyub. Əbu Reyhan Buruni (X-XI əsr) Kopernikdən 500 il əvvəl yerin günəş ərtafında hərəkət etdiyini bildirib.

Əl-Uqlidsi adlı riyaziyyatçı alim 950-ci ildə yazdığı bir əsərində onluq kəsr təlimlərinin əsaslarını verəndən 635 il sonra Hollandiya riyaziyyatçısı Stein onluq kəsri elmə gətirib. Alman alimi Martin Bahayından 226 il əvvəl ilk coğrafiya qlobusu Marağa rəsədxanasının mühəndisi Kəriməddin Səlmasi tərəfindən 1266-cı ildə hazırlanıb. Bundan başqa, İslam dünyasının - müsəlman aləminin İbn Sina, Həsən ibn Heysəm, Zəkəriyya Razi Əndəlosi, Əbbas İrani, Əli ibni Rizvan Misri, İbni Bətlan Bağdadi, Əbu Mənsur Herati, İbni Vəfid İspaniyayi, Masəviyyə Bağdadi, Əli ibn İsa Bağdadi, Əmmar Mosuli, İbn Rüşd Əndəlosi, Əbul Qeys Əndəlosi, İbn Hoqəl (böyük müsəlman coğrafiyaşünası) və b. kimi tanınmış elm adamları olmuşdur.

Səlib yürüşlərinə qədər İslam aləmi inkişaf dövrünün çiçəklənən zamanını yaşayırdı. Hicri-qəməri tarixi ilə 215-ci ildə Bağdad şəhərində Abbasi xəlifəsi Məmunun tərəfindən bir çox rəsədxana və böyük kitabxanaya malik olan "Beytul-hikmət" adlı elmi mərkəz təsis edilmişdi. Məmun bunun üçün 200 min dinar pul sərf etmiş və orada müsəlmanların elmi əsərlərini başqa dillərə tərcümə etmək üçün bir çox alimləri toplamışdı.

Doktor Qustav Loben deyirdi: "Kitab və kitabxanaların Avropa xalqları nəzərində heç bir dəyəri olmadığı və bütün kilsə və monastırlarda cəmi 500 cild dini kitab mövcud olduğu dövrdə, İslam ölkələrində kifayət qədər kitabxanalar var idi. Bağdaddakı "Beytul-hikmət" kitabxanasında 4 milyon kitab, Qahirədəki "Səltənət" kitabxanasında 3 milyon kitab, Şamdakı "Trablos" kitabxanasında 3 milyon kitab mövcud idi. O dövrdə müsəlmanların əlində olan İspaniyada təkcə bir ildə 80 minə yaxın cild kitab hazırlanırdı.

Mustənsiriyyə şəhərində çox böyük və əzəmətli binası olan İslam dünyasında görünməmiş bir universitet var idi.

Doktor Maks Meyerhof bele deyir: "İstanbulda 80-dan artıq kitabxana var idi ki,burda on minlərlə kitab toplanıb. Qahirədə, Dəməşqdə, Mosulda, Bağdadda və İranda bir-birindən böyük çoxlu kitabxanalar mövcuddur".

Doktor Qustav Loben: "Müsəlmanların müxtəlif elmləri öyrənməyə yüksək əhəmiyyət göstərməsi, doğurdan da, çox heyrətamizdir. İslam fəthləri zamanı onlar tutduqları hər



bir şəhərdə birinci olaraq məscid və mədrəsələr inşa etdirirdilər".

XII əsrin alimlərindən olan Bencamen Tuvel yazırdı ki, mən təkcə İskəndəriyyə şəhərində 20 elmi labaratoriya görmüşdüm. Bağdad, Qahirə və başqa müsəlman şəhərlərində çoxlu sayda elmi mərkəzlər, labaratoriyalar, kitabxanalar və rəsədxanalar mövcud idi. Halbuki, Avropada ilk kitabxana 400 il sonra Parisdə təsis edilmişdi".

Ümumiyyətlə İslam dininin elmə verdiyi dəyərə və müsəlman aləminin alimləri haqqında çox nümunə göstərmək olar. Təəssübkeşlik etməyən şəxsə bir nümunə göstərsək belə kifayətdir.

**Həbib Tağı**

# MƏHƏBBƏT DİNİ

## (Əllamə Təbatəbainin baxışlarına əsasən)




İnsanın məhəbbət cazibəsi o qədərdir ki, insanı qul olma həddinə qədər çatdıra bilər. Necəki deyiblər: "İnsan yaxşılığın quludur"

Ruhun tərbiyəsində məhəbbətin rolu danılmazdır. Həqiqi məhəbbətin bağlı olduğu isə, Allahın sonsuz varlığı və tükənməz kəmalı sayılmışdır. Dəqiq olaraq buna görə, Əllamə Təbatəbai (r) tövhidə əsaslanan əxlaqi tərbiyənin ən mühüm üslubunun bəndəlik sevgisi üslubu olduğu qənaətindədir.

Eşq və məhəbbət ilk baxışda hər bir arif və avam şəxsi özünə cəlb edən mövzulardandır. Uzun əsrlər boyu məhəbbət insanların ən mühüm iztirab keçirdiyi və itirmiş saydığı şeylərdən biri olmuşdur.

Məhəbbət insanın ruhunun qidası və ona rahatlıq verən olmuşdur. Məhəbbət insanın fitrətində yerləşmiş və onun bütün vücudunu bürümüşdür. Belə ki, hətta bəzi alimlər insanın "insan" adlandırılma səbəbini, onun ünsiyyətdə olması (üns) sözündən götürüldüyünü bildirmişlər.

Məhəbbət və sevgi öz vücudmuzda gördüyümüz həqiqətlərdən biridir. Əllamə Təbatəbayi onu belə tərif edir: "Vicdana aid olan və tez-tez qarşıya çıxan məfhumlardan biri də "məhəbbət"dir. Onu yemək, qadın, mal, məqam və elm kimi yerlərdə işlədir və deyirik: "Filan yeməyi sevirəm, qadını sevirəm, pul, vəzifə və elmi sevirəm."

Yeməyi sevir; çünki cismin kamilləşməsinə səbəb olur. Habelə insanın mal, məqam və elmə də rəğbəti kamilliyə rəğbətidir. Buna əsasən, məhəbbət və sevmək insanı kamilliyə çatdıracaq səbəb və kamilləşmiş səbəb arasında vücud bağlantısı və şüurun xüsusi şəkildə cəzb edilməsindən ibarətdir.

Beləliklə, bu səbəbin insanın yediyi yemək yaxud qadından aldığı fayda və ləzzət, ya istifadə etdiyi mal, ya faydalandığı və ya ona dərs öyrədən müəllim olması fərq etmir."(3)

Eşq və məhəbbət iksiri elə əhəmiyyət və dəyərə malikdir ki, Allahın Rəsulu (s) öz duasında onu istəyir və buyurur:

"İlahi! Səni sevməyi, Səni sevənləri sevməyi, Sənin məhəbbətinə çatmağa səbəb olacaq əməlləri sevməyi mənə ruzi et! Səni sevməyi mənim üçün sərin sudan daha da sevimli et!"

Belə nəql edilib ki, Şüeyb (ə) peyğəmbər Allaha eşq və məhəbbətindən o qədər ağladı ki, gözləri kor oldu. Sonra Allah-taala onun gözünün nurunu geri qaytardı. Yenidən o qədər ağladı ki, gözləri yenə kor oldu. Yenə də Allah onun gözlərinə görmə qüdrətini qaytardı. Bu əməl dörd dəfə təkrarlandı.

Sonra Allah ona xitab edərək buyurdu: "Ey Mənim bəndəm Şüeyb (ə)! Nə vaxta qədər bu işi davam etdirəcəksən?! Əgər cəhənnəmin oduna görə ağlayırsansa, səni ondan amanda saxlayaram. Əgər cənnətə şövqdən ağlayırsansa, onu sənə nəsib edərəm."

Ərz etdi: "Ey mənim mövlam! ... Sənin məhəbbət və eşq iksirin mənim qəlbimi fəth edib, səbr və taqətimi əlimdən alıb və dözümüm qalmayıb. Sənin vüsalına çatmayınca belə davam edəcək."

O zaman Allah təbarək-taala buyurdu: "İndi ki Mənim vüsalım üçün ağlayırsan, Mənimlə danışan (Kəlim) Musa ibn İmranı sənin xidmətinə göndərəcəyəm!"

İslam təfəkkürünün bu təkidlərinə əsasən, ruhun tərbiyəsində məhəbbətin rolu danılmazdır. Həqiqi məhəbbətin bağlı olduğu isə, Allahın sonsuz varlığı və tükənməz kəmalı sayılmışdır. Dəqiq olaraq buna görə, Əllamə Təbatəbai (r) tövhidə əsaslanan əxlaqi tərbiyənin ən mühüm üslubunun bəndəlik sevgisi üslubu olduğu qənaətindədir.

O, "Əl-Mizan" təfsirində buyurur: "Quran nəzərində əxlaqi tərbiyənin ən mühüm üslubu bəndəlik sevgisi üslubudur. Çünki İslamın əsası bəndəlik məhəbbəti üzrədir.

Yəni Allah tərəfini bəndə tərəfdən üstün tutmaq; Allahın razılığını öz razılığından üstün tutmaq; Öz haqqından Allahın haqqına görə keçmək və öz qəzəbindən Allahın qəzəbinə görə keçmək; Bu məhəbbət insanı ictimai baxışın bəyənmədiyi işlərə məcbur edir. Çünki ictimai əxlaqın (etikanın) meyarı elə ictimai ağılın özüdür. Məhəbbət insanı elə işlərə vadar edir ki, ümumi və dini mükəlləfiyyətin əsası olan adi dərk onu dərk etmir."

Əllamə Təbatəbai bəndə və Allah (Məbud) əlaqəsini məhəbbət əsasında izah etdikdən sonra Quranda Allaha məhəbbət əldə etmə yollarını araşdırır və onları belə sayır: "Təfəkkür və Allahı tanıma, daima zikr etmək və nemətləri xatırlama

və insanın Allah qarşısındakı məsuliyyəti, Allahdan başqasının məhəbbətini (qəlbdən) çıxarmaq "Qəlb Allahın hərəmidir. Allahın hərəmində Allahdan başqasına yer vermə", Allahın razılığına uyğun əməl etmək və Allahın göstəriş verdiyi Allah övliyalarına məhəbbət bəsləmək: "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən (Əhli-beytə sevgidən) başqa bir şey istəmirəm. ("Şura" surəsi, 23-cü ayə;); Habelə, Əllamə bəyan edir ki, peyğəmbər (s) və onun məsum Əhli-beyti (ə) İlahi zikrin nümunələridirlər; Çünki Allah onların vasitəsilə xatırlanır.

Əllamə Təbatəbai (r) öz əsərlərində məhəbbət dininin elmi və irfani izahını verməklə yanaşı, onu öz həyatının bütün sahələrində tətbiq etmişdi. Belə ki, son onilliklərdə onu peyğəmbər Əhli-beytinə (ə) məhəbbətin dirçəldicisi saymışlar. Bizim seyidimiz, Ustad Əllamə ismət və təharət ailəsinə olan bu eşq, məhəbbət və rəğbət yolunu elə dirçəltdi ki, əməli olaraq buyurdu: "Mənim Əhli-beytimə (ə) məhəbbətdən başqa bir şey istəmirəm" ayəsi, biz müsəlmanların rəsmi yaxşılığımızdır (gözəlliyimizdir). Dərs məclislərində buyururdu: Əgər ölkənin rəsmi yaxşılığı deyilsə, bu yaxşılıq Əhli-beyt (ə) vilayətidir. Çünki ayədə "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən (Əhli-beytə sevgidən) başqa bir şey istəmirəm", cümləsinin ardınca, fasiləsiz olaraq buyurur: "Kim bir yaxşı iş görərsə..." Bu qədər yəqinlə xitab məqamındadır. Bu qədər yəqinlə də nümunə var. "Həsənə" (yaxşılıq), yəni Əhli-beytə (ə) məhəbbət. Əgər məhəbbətdən də üstün olan "vidad" (ayədə deyilən "məvəddət" sözü bu kökdəndir) varsa, insan bu yolda baş verər, can verər. Bu ali-cənab da gəlmişdir ki, "məvəddət" və məhəbbət məsələlərini aktuallaşdırsın."

Digər tərəfdən isə, ailə həyatında və Əllamə ilə öz xanımı arasında da məhəbbət təyin edici rola malik olmuş və hər ikisi bir-birinə qarışmışdılar.

Əllamə Təbatəbainin (r) övladı deyir: "Anamla onun rəftarı çox hörmətli və səmimi idi. Həmişə elə rəftar edirdi ki, sanki anamı görməyə müştaq idi."

Əllamənin mərhum xanımı hicri şəmsi təqvimilə 1344-cü ildə xəstələndikdə, Əllamə xanımının hansısa bir işi görmək üçün yataqdan qalxmasına heç vaxt icazə vermirdi.

Onun övladı bu barədə deyir: "Mənim anam vəfatından təqribən 27 gün öncədən xəstə yatağında idi. Bu müddət ərzində atam onun yatağının yanından bir an da qalxmadı. Bütün işlərini saxlayıb onun xidmətində oldu."

# SALEH ƏMƏL SAHİBİ OLMAĞIN 4 AMİLİ

***Hər birimiz bilməliyik ki, saleh əməli yerinə yetirmək üçün bəzi amillərin olması zəruridir. Təbiidir ki, bir əməlin yerinə yetirilməsi üçün hər nə qədər müqəddimələr hazır olarsa, onun həyata keçməsi də bir o qədər qəti olar.***

**Bəs bu amillər hansılardır?**

1. Allahı yada salmaq. "Onlar orada dad-fəryad edərlər: «Ey Rəbbimiz, bizi (buradan) çıxart ki, (indiyədək) etdiklərimizdən fərqli olaraq, yaxşı işlər görək». (Onlara deyiləcək:) «Məgər sizə nəsihət qəbul etmək istəyən kimsənin öyüd-nəsihət ala biləcəyi qədər ömür vermədikmi? Və sizə bir qorxudan (peyğəmbər) gəlmədimi?! Belə isə, dadın (cəhənnəmin əzabını). Əsla zalımların dadına yetən olmaz»". ("Fatir" 37). Bu ayədən başa düşmək olur ki, Allahı yada salmaq – saleh əməl üçün zəminədir. Başqa ayədə oxuyuruq: "Ancaq iman gətirib yaxşı işlər görən, Allahı çox zikr edən, zülmə uğradıqdan (Peyğəmbər (s) və İslam əleyhinə həcv eşitdikdən) sonra (onların rəddi üçün şerlər yazmaqla) intiqam alanlardan başqa! Zülm edənlər tezliklə biləcəklər ki, necə bir dönüş yerinə qaytarılacaqlar". ("Şüəra" 227).

2. Tövbə. Tövbə, yəni Allaha tərəf qayıtmaqdır. İnsana saleh əməl yerinə yetirmək üçün yollar açar. "(Keçmiş durumlarına görə) tövbə edən, iman gətirən və yaxşı işlər görən kəs istisna olmaqla. Allah onların günahlarını yaxşılıqlara çevirər (gələcəkdə yaxşı işlər görmələrinə kömək edər və yaxud keçmiş günahlarını məhv edərək onların yerinə yaxşılıq yazar). Allah çox bağışlayan və mehribandır. Kim tövbə etsə və yaxşı işlər görsə, o, gözəl və bəyənilən şəkildə Allaha tərəf qayıdar. (Buna görə də günahın savaba çevrilməsi təəccüblü deyil.)". ("Furqan" 70-71). "Ondan sonra tövbə edən və ləyaqət taparaq öz işlərini islah etməyə başlayan kəslər istisna olmaqla! Allah çox bağışlayan və mehribandır". ("Ali-İmran" 89).

3. Səbir. Saleh əməl yerinə yetirmək zahirən çətindir. Ona görə də onu yerinə yetirən insanın səbrə ehtiyacı vardır. "Səbir edib yaxşı işlər görənlər (və nəticədə ruhları xatircəmlik məqamına çatmış və halların dəyişməsinin naümidlik, nankorluq, fərəh və məğrurluq yaratmadığı kəslər) müstəsnadır. Bağışlanma və böyük mükafat məhz onlar üçündür". ("Hud" 11). "(İlahi və din) elm(i) verilmiş şəxslər isə, dedilər: «Vay sizin halınıza! İman gətirən və yaxşı iş görən şəxs üçün Allahın mükafatı (Qarunun bütün sərvətindən) yaxşıdır və onu da yalnız səbirlilər əldə edərlər»". ("Qəsəs" 80).

4. Halal ruzi. "Ey Bizim elçilərimiz! (Bəşəriyyətə öyrətmək məqsədi ilə dünyada olan) bütün (yemək, içmək, geyim, hava, bitki və digər şeylərin) paklar(ın)dan bəhrələnin və yaxşı işlər görün ki, Mən etdiklərinizin hamısını bilirəm". ("Muminun" 51).

Allah Təala bizləri saleh əməl sahiblərindən qərar versin.

# İMAM ƏLİNİN (Ə) KUMEYLƏ ETDİYİ TÖVSİYƏLƏR

*1-Hər gün Allahın adını çək və Ona təvəkkül et.*

*2-Bizi xatırla, adımızı dilinə gətir və bizə salam göndər.*

*3-İnsanların yerinə yetirdiyi elə bir əməl yoxdur ki, mən onu görməyim.*

*4-Bizdən qeyrisindən (və bizə əsaslanmayan) elm və hədis öyrənmə.*

*5-Hər bir işə və hərəkətə qarşı elmin və mərifətin olsun.*

*6-Yemək yeyəndə, Allahın adını çək ki, zərər çəkməyəsən.*

*7-İnsanlara yaxşılıq et, paxıllıq etmə, Allah-taala bu işə görə sənə çoxlu savab verər.*

*8-Yoldaşlarınla gülərüzlə rəftar et və xidmətçilərinin səhvlərini bağışla və onları ittihamlandırma.*

*9-Yeməyi qurtarandan sonra Allaha ucadan həmd-səna et ki, başqaları da sənin səsini eşidib, Allaha həmd-səna etsinlər, bununla sənin savabın böyük olar.*

*10-Doymamışdan bir az öncə, süfrədən çəkil ki, suya və havaya da yer qalsın; bu göstərişə əməl etsən, yemək sənin üçün bərəkətli olar. Bədənin sağlamlığı az yemək və içməkdədir.*

*11-Zəkat verən, möminlərə yardım edən, yaxın adamları və qohum-əqrəbası ilə əlaqəsini möhkəmlədən şəxsin mal-dövlətində xeyir-bərəkət olar.*

*12-Yaxın adamlarından olan möminlərə başqalarından artıq yardım et, fəqirlərə sədəqə ver; çünki sədəqə bəlaları dəf edir.*

*13-Sənə tərəf əl uzadan şəxsi əli boş qaytarma, hətta bir xurmanın yarısı qədər verəməklə olsa belə.*

*14-Mömininin ən gözəl zinəti təvazökarlığıdır.*

*15 Mömininin gözəlliyi iffətindədir.*

*16-Mömininin şərəfi və başıucalığı boş-boş danışmağı tərk etməsindədir.*

*17-Alçaq adamlarla mübahisə etmə, hətta sənə nalayiq sözlər desələr də belə. Səbirli ol və Allah-taalanın "cahil adam onunla mübahisə etdikdə, o cavabında salam verər" – deyə buyurduğu şəxslərdən ol!*

*18-Həmişə haqq söz de!*

*19-Pərhizkarlarla dostluq et və fasiqlərdən uzaq gəz!*

*20-Münafiqlər və xainlərlə əlaqə yaratma.*

*21-Zülmkarların qapısını döymə və onlarla kəsb-ticarət etmə. Məbada, onlara baş əyib, ehtiram göstərəsən!*

*22-Yoxsulluğunu camaata açıqlama, izzətlə yaşa və fəqirlik müqabilində səbr et.*

*23-Səni çətinliklərdə yalqız qoymayan və müsibət üz verdikdə yardım göstərmək üçün əlindən gələnini əsirgəməyən şəxs sənin qardaşın sayılır.*

*24-Mömin mömininin aynasıdır, onlar bir-birlərilə qardaşdırlar və qardaşa qardaşdan əziz bir şəxs olmaz.*

*25-Əgər bir şəxs sənə bir söz deyib, onun sirr olaraq saxlamasını səndən istəsə, onu faş etməkdən həzər et, əks halda tövbən də qəbul olunmaz.*

*26-Çətinliklərdən amanda qalmaq üçün "La hovlə və la quvvətə illa billahil-əliyyil-əzim!" zikrini yaddan çıxartma.*

*27-Sənə hər bir nemət əta olunduqda, onun artması üçün "Əlhəmdu lillah" de!*

*28-Ruzin təxirə düşdükdə, tövbə et və Allahdan bağışlanmağını dilə ki, işlərin öz qaydasına düşsün.*



*29-Vacib olan əməllərin tərk olunmasına qəti icazə verilməmişdir.*

*30-Allahın sənə əta etdiyi minlərlə nemətin müqabilində, Ona təşəkkür etməyi və Onu yad etməyi unutma.*

*31-Allahı yad etməyənlərdən olma.*

*32-İstifadə etdiyin yeməklər halal olmasa, Allah-taala sənin şükrünü və zikrini qəbul etməz.*

*33-Hər bir şəxsin əmanətini – kimliyindən asılı olmayaraq, – özünə qaytar.*

*34-Allah-taala bizi Öz əxlaqına doğru yönəltmiş, onu öyrənməyi və insanları ona rəğbətləndirməyi bizə əmr etmişdir.*

*35-Allaha and olsun, camaatın mənim əmrimə tabe olması üçün, onlara heç vaxt yalvarmaram!*

*36-Bəziləri bu fani və yalan dünyadan ləzzət aldılar, biz isə əbədi axirət aləmindən faydalanıb ləzzət alacağıq.*

*37-Bizi yaxşı əməllərə sövq edən Allahın təqvalılara əta etdiyi behiştin yüksək mərtəbəsidir.*

*38-Behişt fikrində olmayanları ağır və əbədi əzabla müjdələ.*

*39-Namaz qılmaq, oruc tutmaq və sədəqə vermək (təklikdə) mühüm deyildir, əhəmiyyət kəsb edən məsələ təmiz qəlbə, doğru niyyətə və xalis əmələ malik olmaqdır.*

*40-Mən Allaha hər bir halda itaət və sitayiş edirəm. (Sən də həmişə Allaha itaət və sitayiş et!)*

# “Rəssamlar, Ulu Rəssamın yer üzündə köməkçiləridir”

*Rizvan İsmayılov 1969 il oktyabrın 24-də, Gürcüstanın Bolnisi rayonu, Zol-Güvəc (Zveli Kveşi) kəndində dünyaya göz açıb. Orta təhsilini həmin rayonda yerləşən Kazreti qəsəbəsində rus məktəbində alıb.*

*1986-90-cı illərdə Bakı şəhərində Ə. Əzimzadə adına rəssamlıq məktəbinin bədii-tərtibat fakültəsində oxuyaraq tərtibatçı rəssam ixtisasına yiyələnib. 1992-95-ci illərdə isə İranın Qum, Təbriz şəhərlərində ilahiyyat üzrə təhsil alıb. Ara-sıra yaradıcılıq işləri görməklə yanaşı tərtibat və nəqqaşlıq işləri də görübdür.*

*2007-ci ildə İstanbul şəhərində “Cəfərilər dərnəyi”nin təşəbbüsü ilə Ramazan ayı boyunca yağlı boya tabloları, müəllifin izahatları ilə yerli televiziya kanallarının birində yayımlandı. Elə həmin il Marneuli şəhər “Gənclər mərkəzi”nin rəsm salonunda rəssamın ilk fərdi sərgisi keçirilib.*

*Hal-hazırda rəssamın yüzə yaxın yağlı boya və qrafik əsəri var. Rizvan İsmayılov 3 uşaq atasıdır. O, “Borşalı qəlbimdir, eşqim Əhli-Beyt” adlı şerlər, “Gürcüstanda İslam abidələri” adlı tarixi-ensiklopedik iki kitabın müəllifidir.*







## “Yaradıcılıqda əsas hədəflərim”

İstər elmi, istərsə də incəsənətin bütün qollarının insanların maddi-mənəvi inkişafında dayanmalı olması barədə yəqin ki, mübahisəli məsələ deyil. Bu nöqtədən çıxış edərək təbii ki, digər mədəniyyət və incəsənət şaxələri kimi təsviri sənət də bu amal və məqsədə xidmət etməlidir. Tarix boyu, istər memarlıqda, istər tətbiqi və toxuculuq sənətində istərsə də təsviri sənət bəşəriyyətin mənəvi təkamülündə böyük rol oynamışdır. Hər dövrün tələbatına cavab verən həmin dövrün rəssamları kimi, müasir dövrün də təsviri sənət ustalarının da boynuna ağır vəzifələr düşür. Zamanımızda yetərincə rəssamlıq cərəyanları olmasına baxmayaraq, görünür ki, mövcud cəmiyyətin mənəvi müşküllərinin həllində rəssamlıq sənəti yetərincə tələbata cavab verə bilmir. İyirminci əsrdən başlayaraq günümüzəcən bir dövrana nəzər saldıqda bir şeyin şahidi oluruq ki, elmi-texniki tərəqqi, at arabası, neft və mum çıraqlarını və s. sıradan çıxararaq hər gün yerinə yenisi ilə əvəzlədiyi kimi bəşər cəmiyyəti də mənəvi dəyərlərini itirərək ruhun təbii inkişafını önləyən mənfi və yolverilməz əxlaqi və ictimai normaları özünə hakim etməyə başladı. Hər şeyin fitrət və batinində,



onun mahiyyətində qoyulmuş ilahidən gələn mövcudiyyəti anormal yeniliklərlə əvəzləmək sa-



ğalmaz fəsadlar törətdiyi artıq getdikcə daha çox biruzə verməyə başlayır. Dünyanın qərbində bir cür, şərqində isə digər mənəvi və sosioloji fəlakətlər baş verməkdədir. Belə olduqda kainatın əsas elementi olan bəşər övladı "İnsan" ümumi harmonyaya tabe olmaq üçün təbiətin



yenidən bir parçasına dönmək üçün gərək öz təbiətinə, fitrətinə nəzər salsın, özünü öyrənsin, özünə qayıtsın. Misal olaraq normal tənəffüs üçün atmosferin tərkibində müəyyən sayda kimyəvi qazların olduğu əvvəldən Tanrı tərəfindən müəyyən edildiyi halda insan ətraf mühiti, havanı çirkləndirərək öz təbiiliyindən uzaqlaşdırmaqla elə özü üçün ağılagəlməz bəla və fəsadlara yol açır. Buradan çıxış edərək, bəşər övladına qədər öz təbiətinə, daxili aləminə zidd olan hadisələrə qərq olsa bu onun özündə və sonrakı nəsillərdə öz dərin zərərli izlərini buraxacaqdır.

Belə bir vəziyyətdə digər elmi-mədəni sahələr kimi rəssamların da boynuna öz əsərləri ilə cəmiyyəti öz fitrətinə, təbii keçmişinə uca dəyərlərə qaytarmaq görəvi düşür.

Təsviri sənət bu məsələlərin həllində o qədər böyük əhəmiyyətə malikdir ki, bəzən bir dərin süjetli tablo onlarla kitabın mənalarından daha çox mətləb çatdırmaq iqtidarındadır. Bir elmi hesablamaya görə bir təsvir mindən çox sözü əvəz edir. İnsan öz həyatı boyu beyninə topladığı yaddaş bazasının 75 faizi gözləri ilə aldığı təsviri məlumatlardan ibarətdir. Rəssamlıq sənəti görülən sənət



olduğuna görə, bəzən bir tablonu bir kitabxana dolusu kitabın çatdıracağı mənanı insanlara çatdıra bildiyi üçün rənglərin haqqını ödəmək lazımdır. Rənglərin virtual dili ən yaxşı qavranan və yadda qalan dildir. (Rəssam-



rənglərlə şer yazan bəstəkardır).

Tarixə nəzər salsaq dərin dini və fəlsəfi fikirlər əksərən şərqdən qərbə tərəf yayıldığına görə bizim görəvimiz öz dövrümüzdə maddi-mənəvi irsimizi əvvəlcə özümüzə xatırlatmaq sonra isə digərlərinə



çatdırmaqdır. Sivilizasiyaların mərkəzində qərar tapmış bir görkəmli mədəniyyətin beşiyində dünyaya göz açmış xalq kimi şərq və qərb



dünyasına öz maarifimizi bir daha yeni tərzdə çatdırmalıyıq. Burada azəri rəssamların boynuna böyük vəzifələr düşür. Çünki, tarix boyu bizim elmi-mənəvi təfəkkürümüz və xəzinəmiz nəsr, şer və musiqi janrlarında bəşəriyyətə çatdırıldığı halda (bəzi dini mülahizələrdən törəyən qadağalara görə) rəssamlıq



və təsviri sənətimiz natamam qalmış bu sənətin dili ilə bəşəriyyətə çox az söz deyə bilmişik. Hal hazırda millətlərin intelektual və ictimai tərəqqisi bu maniələri demək olar ki, aradan qaldırmışdır. Artıq çoxdandır ki, rənglər rənggarları yeni üslubda yaradıcılığa və dostluğa səsləyir. Rənglər rəssamlardan 16 milyonluq saysız hesabsız çalarları ilə onları



zirvələri fəth etməyə səsləyir.

Biz, iki elə əhəmiyyətli dövranın, tarixi mərhələnin kəsişmə nöqtəsində və axirəz-zamanın astanasındayıq ki, keçmiş öz tarix kitabına yavaş-yavaş bağlamaqda yeni dövr isə təzə qapılarını üzümüzə açmaqdadır. Son yüz ildə bütün sahələrdə proseslərin inkişafı son dərəcə vüs`ət almışdır artıq müasir elmi texniki tərəqqi keçmişin min ilinin nəaliyyətlərini əlli ildə ötüb keçir. Artıq yeniliklər dediyimiz hadisələr çox tez köhnəlməyə başladı. Kəşflərin doğurduğu 30 il qabaqkı təəccüb və heyrət indi təbəssüm yaratmaqdadır.

Biz, zühur astanasında olan bir nəsilik. Bizlər Hz İsa (ə) və Hz Məhdi (ə.f)-ın quracağı müstəsna və kamil İlahi sistemin başlanğıcını seyr etməkdəyik. Biz, Onların gəlişinə hər fərd öz istedadı çərçivəsində zəmin yaradacaq nəsilik. Burada yenə də qeyd edirik ki, rəssamların öhdəsinə böyük vəzifələr düşür. 2015 ci ilin əvvəlində təşkil olunacaq (şərq müdriklərinin qonaqlığında) adlı sərgidə nümayiş olunacaq tablolar yuxarıda deyilən mülahizə və tələbatların virtual ifadə və nəticələridir. Təbii ki, hələ çox işlər görmək daha yüksək təsvir və məna yolları və üslubları axtarmaq lazımdır.

Bu yolun hələ əvvəlindəyik. Böyük ümidlərlə bu missiyanı yerinə yetirməyi uca tanrıdan həm sizlərə həmdə özümə arzu edirəm.

**Rizvan İsmayılzadə**





